29 dekabr 2021 №96 (1873) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Sankt-Peterburqda MDB dövlət başçılarının qeyri-rəsmi görüşü

Dekabrın 28-də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində MDB dövlət başçılarının qeyri-rəsmi görüşü keçirilib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə iştirak edib.

Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayıb.

MDB dövlət başçıları birgə foto çəkdiriblər.

Rusiya Prezidenti Vladimir Putin görüşdə çıxış edib.

Sonra koronavirus pandemiyasına qarşı mübarizə məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdən sonra MDB dövlət başçılarının qeyri-rəsmi naharı olub.

Prezident İlham Əliyevin Sankt-Peterburq şəhərinə səfəri dekabrın 28-də başa çatıb.

# Mədəniyyət Nazirliyi 2021-ci ilə yekun vurdu

### "Fəxr edirik ki, ölkəmizin inkişaf prosesindən kənarda qalmadıq və öz töhfələrimizi verdik"

Dekabrın 28-də Beynəlxalq Muğam Mərkəzində Mədəniyyət Nazirliyinin birillik fəaliyyətinə həsr olunan mətbuat konfransı keçirildi. "Mədəniyyət Nazirliyi: 2021-ci il üzrə hədəflər və nəticələr" mövzusunda tədbiri nazirliyin Media və kommunikasiya şöbəsinin müdiri Məryəm Qafarzadə açaraq KİV nümayəndələrini salamladı. İl ərzində nazirlik tərəfindən həyata keçirilən layihələrin işıqlandırılmasında göstərilən dəstəyə və əməkdaşlığa görə media nümayəndələrinə təşəkkürünü bildirdi: "Nazirliyin məqsədlərindən biri də mədəniyyət sahəsindəki yenilikləri operativ şəkildə ictimaiyyətə çatdırmaqdır. Bu yolda körpü yaratdığınız üçün hər birinizə minnətdarıq".




Daha sonra mədəniyyət naziri Anar Kərimov səhnəyə dəvət edildi. Nazir mətbuat konfransına qatılan KİV nümayəndələri və mədəniyyət və incəsənət xadimlərini salamlayaraq qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik etdi.

Nazir diqqətə çatdırdı ki, 2021-ci il ölkəmiz üçün Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində Qələbənin birinci ildönümü və Qarabağa böyük qayıdışın ilk addımları kimi yadda qaldı: "Mədəniyyət Nazirliyi olaraq fəxr edirik ki, bu prosesdən kənarda qalmadıq və öz töhfələrimizi verdik".

2021-ci ilin əvvəlində nazirlik tərəfindən 9 hədəf üzrə fəaliyyət planının bəyan edildiyini bildirən Anar Kərimov dedi: "Hədəfimiz bu bəndləri sözdə deyil, əməldə icra etmək idi. Bu gün artıq nəticələri elan etmək vaxtıdır. Mədəniyyət Nazirliyi xalqımızın yaratdığı zəngin mədəniyyəti və maddi-mənəvi irsi qorumaq, inkişaf etdirmək, məzmununu zənginləşdirmək və gələcək nəsillərə layiqincə çatdırmaq, eləcə də dünya miqyasında onu təbliğ etmək, habelə bu sahədə dövlət siyasətini səmərəli şəkildə həyata keçirmək istiqamətində fəaliyyət göstərib".

### İdarəetmə sistemində islahatlar

Mədəniyyət sahəsində və idarəetmə sistemində islahatların aparılması hədəfi ilə bağlı 2030-cu ilədək "Azərbaycan Respublikasının mədəniyyət strategiyası"nın hazırlanması ilə bağlı işlərin görüldüyünü diqqətə çatdıran nazir qeyd etdi ki, bu sahədə 5 istiqamət üzrə (mədəni irsin qorunması, insan kapitalının inkişafı, yaradıcı sənaye dəstək, Azərbaycan mədəniyyətinin beynəlxalq səviyyədə təşviqi, mədəniyyətin Qarabağa, Qarabağın mədəniyyətə qayıdışı) prioritetlər elan edilib. Həmçinin hüquqi bazanın yenidən qurulması da nəzərdən keçirilir. Bu hədəf üzrə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə 5 yeni regional idarə yaradılıb.

Bildirildi ki, mədəniyyət və yaradıcılığın inkişafı məzmununun zənginləşdirilməsi hədəfi üzrə Azərbaycan Film Komissiyasının yaradılması, "Azərbaycanfilm" Kinostudiyasında aparılan islahatlar, 12-ci Beynəlxalq Qısametrajlı Filmlər Festivalı, IV "Animafilm" Beynəlxalq Animasiya Festivalı, "Böyük qayıdış" qısametrajlı bədii, sənədli və animasiya film layihələri müsabiqəsi və digər layihələri qeyd etmək olar. Məhz bu hədəf üzrə il ərzində 40-dək bədii, sənədli və animasiya filmi çəkilib. Filmlərimiz beynəlxalq festivallarda iştirak edərək mükafatlara layiq görülüb.

29 ildən sonra azad Şuşada "Xarıbülbül" musiqi festivalı, XVI Beynəlxalq Bakı Caz Festivalı, Qəbələ Musiqi Festivalı, Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı, Vətən müharibəsində Qələbəyə həsr olunmuş bəstəkarlıq müsabiqəsi və digər layihələr ilin musiqi mənzərəsinin zənginliyindən xəbər verir.

davamı səh. 2-də

## "Ekspo Dubay" sərgisində Azərbaycan ritmləri və rəqsləri

Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə dekabrın 27-də "Ekspo Dubay 2020" dünya sərgisinin Dubay Millenium amfiteatrında "Azərbaycan ritmləri və rəqsləri" adlı möhtəşəm konsert proqramı təqdim olunub.

Konsertdə "Natiq" ritm qrupu, Azərbaycan Dövlət Rəqs Ansamblı, Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı, Bakı Xoreoqrafiya Akademiyasının rəqs qrupu və Azərbaycan Dövlət Sərhəd Xidmətinin "Mirvari" rəqs qrupu rəngarəng proqramla çıxış ediblər. "Qavaldaş", "Qarabağ", "Mirzəyi", "Nəlbəki", "Sarı gəlin" və s. kompozisiyalar tamaşaçıların alqışları ilə qarşılanıb.



Musiqi və rəqslərimizin ecazkar çələngi ilə bərabər səhnədəki monitorda Azərbaycanın tarixi, coğrafiyası, milli xalçalarımız, şəbəkə sənəti, Şuşa və Cıdır düzünün görüntüləri də izləyicilərin böyük marağına səbəb olub.

Anşlaqla keçən konsertin sonunda UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil olan milli rəqsimiz – "Yallı" sədaları altında bütün auditoriya rəqs edib və konsert tamaşaçıların "Qarabağ Azərbaycandır!" şüarı ilə yekunlaşıb.

Tədbirdə ölkəmizi mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyevanın başçılıq etdiyi nümayəndə heyəti təmsil edib.

davamı səh. 2-də

## Qələbə ruhlu notların hakim olduğu il

Başa çatan il Azərbaycan musiqi mədəniyyəti tarixində rəngarəng tədbirlər və maraqlı layihələrlə yaddaşlara yazıldı. Pandemiyanın qaçılmaz məhdudiyyətləri şəraitində də olsa, konsert salonları tamaşaçıların üzünə açıldı, festivallar, konsert proqramları sənətsevərlərin görüşünə gəldi...

Mayın 12-də Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa illərin həsrət dolu ayrılığından sonra "Xarıbülbül" musiqi festivalına ev sahibliyi etdi. Festival Prezident İlham Əliyevin çıxışı ilə başladı. Dövlət başçısı uzun fasilədən sonra Cıdır düzündə – hər birimiz üçün müqəddəs olan Şuşada "Xarıbülbül" festivalının keçirilməsi münasibətilə Azərbaycan xalqını ürəkdən təbrik etdi.

Heydər Əliyev Fondunun təşkil etdiyi, zəngin repertuar əsasında qurulmuş festivalda Azərbaycanda yaşayan müxtəlif xalqların musiqi kollektivləri çıxış etdilər, xalq və klassik musiqi nümunələrindən ibarət proqram təqdim olundu.

davamı səh. 5-də



## İlin teatr fraqmentləri və yaddaşlara yazılan yubiley

Yaşanan ilin başa çatması hər bir fəaliyyət sahəsi üçün həm də hesabat məqamıdır. İl ərzində teatr sahəsində baş verənlərə qısa nəzər yetirəcəyik. Əslində, söhbət teatrdan gedirsə, buna bütövlükdə il də demək olmaz. Çünki teatrlarda fəaliyyət pandemiya ilə bağlı karatın şəraitində müvafiq yumşadılma qərarından sonra – oktyabrın 1-dən başladı.

Təbii ki, bu müddət ərzində irimiqyaslı festivallar, yaddaqalan premyeralar olmadı. İl ərzində yadda qalanlar sırasında Zəfər Gününə, İkinci Qarabağ müharibəsindəki şanlı Qələbəmizin ildönümünə həsr olunmuş iki ölkə daxili teatr festivalını qeyd edə bilərik.

Mədəniyyət Nazirliyi və Teatro.az portalı Vətən müharibəsində Zəfərimizi səhnə əsərlərində yaşatmaq, eləcə də teatr sənətçilərini yeni yaradıcı təşəbbüslərə təşviq etmək məqsədilə "4.4" Qısa Tamaşalar Festivalı keçirdi.

Mədəniyyət Nazirliyi və Teatr Xadimləri İttifaqının təşkilatçılığı ilə Qələbəmizin ildönümünə həsr olunmuş "Qalib olan Azərbaycan" adlı tamaşalar festivalı da baş tutdu. Bundan başqa, Mədəniyyət Nazirliyinin dəstəyi, ATXİ-nin təşəbbüsü və iştirakı ilə bir qrup teatr təmsilçisi postsovet ölkələri gənclərinin teatr forumunda iştirak etdilər.

"Nizami Gəncəvi İli" ilə bağlı ölkə teatrları bir sıra yaradıcılıq təşəbbüslərini realizə etməyə çalışdılar. Nazirliyin dəstəyi ilə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında "İskəndərə yeni namə" adlı tamaşanın premyerası reallaşdı.

Tanınmış teatr xadimlərinin yubiley və xatirə gecələri də ilin mədəniyyət mənzərəsində yer aldı.

davamı səh. 4-də

## 2021-ci ildə kino yaddaşına yazılanlar

Pandemiyanın yaratdığı müəyyən məhdudiyyətləri nəzərə alsaq, 2021-ci ilin kinomuz üçün məhsuldar keçdiyini deyə bilərik. C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyası, "Salnaməfilm" studiyası və Bakı Media Mərkəzi yeni ekran əsərləri ilə kinosevərləri sevindirdilər. Bir sıra özəl studiyalar da prosesə öz töhfələrini verdilər.



"Azərbaycanfilm" il ərzində 3 tammetrajlı və 1 qısametrajlı bədii film, 1 bədii televiziya filmi (5 hissəli), bir serial, 9 sənədli film istehsal edib, o cümlədən 2 radio və televiziya layihəsi həyata keçirib.

İl ərzində Mədəniyyət Nazirliyinin sifarişi ilə Elçin Musaoğlunun "Məryəm", ("Sinema Evi" şirkəti ilə birgə), Xalq artisti Vaqif Mustafayevin 44 günlük Vətən müharibəsinə həsr olunmuş "Həyat, deyəsən, gözəldir" ("Fəryad II"), Asif Rüstəmovun "Mərmər soyuğu" ("İctimai TV", Bakı Media Mərkəzi və "Arizona Productions" ilə birgə) tammetrajlı bədii filmlərinin istehsalı başa çatdırılıb. Hər üç ekran əsəri növbəti il tamaşaçılara təqdim ediləcək.

davamı səh. 5-də




## Nizaminin irsi ilə ölkəmizi də tanıdırıq

səh. 3

## "Qarabağ ilmələrdə" sənədli filmi təqdim olundu




səh. 2

## "Kreativ Azərbaycan Könüllüləri" Hərəkatının təqdimatı keçirilib

səh. 5



## Tokioda caz konsertində Azərbaycan musiqisi

səh. 8

№96 (1873)
29 dekabr 2021
www.medeniyyet.az

# “Qarabağ ilmələrdə” sənədli filminin təqdimatı

Dekabrın 28-də Nizami Kino Mərkəzində “Qarabağ ilmələrdə” sənədli filminin təqdimat mərasimi keçirildi.

Mərasimdə Mədəniyyət Nazirliyinin Aparat rəhbəri Vasif Eyvazzadə, “Azərxalça” Açıq Səhmdar Cəmiyyəti (ASC) İdarə Heyətinin sədri Emin Məmmədov, mədəniyyət, incəsənət xadimləri və digər qonaqlar iştirak edirdilər.

Filmin nümayişindən öncə çıxış edən Azərbaycan Jurnalistlər Şəbəkəsi İctimai Birliyinin sədri Ayaz Mirzəyev qeyd etdi ki, ölkəmizin 44 günlük Vətən müharibəsindəki Qələbəsini simvolizə edən və xalqımızın həmrəyliyini nümayiş etdirən sənədli film “Qarabağ ilmələrdə” adlı sosial layihə çərçivəsində hazırlanıb. İctimai birliyin təşəbbüsü, Mədəniyyət Nazirliyi, “Azərxalça” ASC və “Təmiz Şəhər” ASC-nin dəstəyi ilə keçirilən sosial layihədə bir xalçanı 44 gün ərzində minlərlə insan toxuyub. Sonuncu ilmələri Zəfər Günü ərəfəsində işğaldan azad olunan Şuşa şəhərində vurulan xalçanın toxunma prosesi əvvəldən axıra qədər filmdə əks olunur.



Daha sonra “Qarabağ ilmələrdə” sənədli filmi nümayiş olundu.

Mədəniyyət Nazirliyinin Aparat rəhbəri Vasif Eyvazzadə çıxışında bildirdi ki, xüsusi avtomobildə daşınan xalçaya şəhid ailələri, müharibə iştirakçıları və bölgələrimizdə yaşayan vətəndaşlar ilmə ataraq müzəffər Ali Baş Komandan İlham Əliyev və onun rəhbərlik etdiyi şanlı Ordumuz tərəfindən 44 günün sonunda düşmən üzərində qazanılan Qələbənin yaşatdığı hissləri dilə gətiriblər.

“Azərxalça” ASC İdarə Heyətinin sədri Emin Məmmədov söylədi ki, layihəyə “Azərxalça”nın 12 emalatxanası və 16 toxucusu cəlb olunub: “Bu layihə ilə xalqımızı yenidən mədəni irsimiz, tariximizlə birləşdirməyə nail olduq”.

Daha sonra çıxış edən filmin ssenari müəllifi (həm də “Qarabağ ilmələrdə” layihəsinin ideya müəllifi) Orxan Cabbarlı layihənin həyata keçirilməsində əməyi olan hər kəsə təşəkkürünü bildirdi.

Sonda şəhidlər – Milli Qəhrəman, general-mayor Polad Həşimov, polkovnik-leytenant Raqub Orucov və əsgər Denis Əliyevin (Pronin) ailə üzvlərinin iştirakı ilə 44 gün ərzində toxunan Qarabağ qrupuna aid “Çələbi” xalçasının hanadan kəsimi keçirildi.

Qeyd edək ki, “Qarabağ ilmələrdə” filminin ssenari müəllifi Orxan Cabbarlı, quruluşçu rejissoru Emil Babayev, rejissoru Bəhruz Qədirov, quruluşçu operatoru isə Böyükağa Nağıyevdir. Ekran işi Vətən müharibəsində hər bir azərbaycanlının zəhmətini, birlik və bərabərliyini nümayiş etdirmək baxımından böyük əhəmiyyət kəsb edir.

**Nurəddin**

Baş redaktordan

# Bayram bayrama qovuşanda...

Şanlı Zəfərin şöləsi və Nizami dühası ilə aydınlanan, əsarətdən qurtulan yurd yerlərimizin dirçəlişinə təməl olan, milli ruhumuzun yüksəlişi ilə tarixə yazılan 2021-ci ili başa vururuq. Qarşıdan gələn ilin xalqımız və dövlətimiz üçün daha parlaq, firavan, uğurlu olacağına inamımız tamdır. Çünki illərlə bizi müşayiət etmiş kəsirli, natamam halımızı ötən il tarixə gömdük...

2021-ci il Azərbaycanın müstəqillik tarixində sərhədləri bütöv dövlət kimi yaşadığı ilk il oldu. Ərazi bütövlüyümüzün bərpası ilə milli ruhumuz da tam halına qovuşdu və bu ili 44 günlük Vətən müharibəsinin qalibiyyət havasında keçirdik. Amma o 44 günün Zəfəri o qədər parlaqdır ki, şölələri bundan sonra hələ neçə illəri aydınladacaq, ölkəmizin gələcəyinə, tərəqqisinə işıq salacaq...

Tam otuz il əvvəl, 1991-ci ildə təqvimimizə bir gün daxil oldu: Dünya Azərbaycanlılarının Həmrəylik Günü. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Heydər Əliyevin sədrliyi keçən iclasında 31 dekabrın “Dünya azərbaycanlılarının həmrəylik bayramı” kimi qeyd olunması barədə qərar qəbul edildi. Ali Məclis müvafiq qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə – Azərbaycan Respublikası Ali Sovetinə müraciət ünvanladı. 1991-ci il dekabrın 25-də parlament Dünya Azərbaycanlılarının Həmrəylik Günü haqqında qanun qəbul etdi.

Bu gün sayəsində il sonu bayramımız ikiqat oldu. Lakin bayram bayrama qovuşsa da, onları nə xalq, nə də fərd olaraq ürəkdolusu, tam bir könül xoşluğu ilə yaşaya bilmirdik. Çünki hər ili başa vuranda, dost-tanışı qoşa bayramlar münasibətilə təbrik edəndə yağı tapdağındakı yurd yerlərini yada salıb köks ötürür, “kaş gələn il...” deyə qarşıdan gələn ilin düşərli olmasını diləyirdik...

Artıq ikinci ildir xalqımız, bütün dünyada yaşayan soydaşlarımız il sonunu gerçəkdən ikiqat bayram kimi qeyd edir. İndi sözün hər anlamında bayram bayrama qovuşur. Tarixi Zəfərin xalqımıza bəxş etdiyi sonsuz qüruru müxtəlif ölkələrdəki həmvətənlərimiz də doya-doya yaşayırlar; qalib xalqın təmsilçisi olaraq – alnıaçıq, başıuca. Həmrəylik Gününün təqvimimizə daxil olmasında təşəbbüs və imzası olan ulu öndərin tarixi kəlamı – “Mən fəxr edirəm ki, azərbaycanlıyam!” sözləri də indi bir deyil, üç nida ilə bəyan ediləcək qədər dərin anlam kəsb edir.

Hər şey axır, hər şey dəyişir... Antik dövr mütəfəkkirlərindən birinə aid edilən bu sözləri, əslində, hər kəs deyə bilərdi. Çünki bu həyatda dəyişiklik labüddür, ən azından günlərin, ayların, illərin bir-birini əvəzləməsi ilə. Tarix boyu yenilənmə, dəyişiklik öncəlik olaraq mədəniyyətlə təzahür edib. Qədimdən bu yana bir xalqın, məmləkətin, hətta böyük imperiyaların inkişaf səviyyəsi mədəniyyətdə, incəsənətdə, ədəbiyyatda, elmdə intibahla ölçülüb. Əsrlərdən bizə qalan ən zəngin dəyər elə mədəni irsdir. Bir yapon məsəlində deyildiyi kimi, dünyada hər şey unudulandan sonra qalan nə varsa, mədəniyyətdir.

Min illərdən üzü bəri uzun yol gələn Azərbaycan mədəniyyətinin tarixinin xüsusilə XX əsrdən bu yana olan hissəsi həm də mətbuat səhifələrində yaşayır. Bu sırada bu il otuz ilini tamamlayan “Mədəniyyət” qəzetinin də öz payı var.

2021-ci ildə ölkəmizin mədəni həyatı, dünyanın bir çox yerlərində Azərbaycan mədəniyyəti adına gerçəkləşən tədbirlər, Nizami Gəncəvinin 880 illiyindən Aşıq Ələsgərin 200 illiyinədək bir çox yubileylər, işğaldan azad edilmiş torpaqlarımızda başlanan quruculuq, xalqımıza Qələbə ruhu yaşadan Vətən övladlarının xatirəsinin yaşadılması üçün reallaşan layihələr qəzetimizin səhifələrində geniş əksini tapdı. Qəzetimiz “Nizami Gəncəvi İli”nə töhfə olan xüsusi buraxılışı ilə də oxucuların görüşünə gəldi...

2022-ci ildə ölkəmizi yeni yüksəliş və tərəqqi dövrü gözləyir. Bu yeni tarixin yazılacağı mətbu salnamədə “Mədəniyyət” imzası ilə oxucuların görüşünə gəlmək diləyi ilə hər kəsi qoşa bayramlar münasibətilə təbrik edirik...

# Mədəniyyət Nazirliyi 2021-ci ilə yekun vurdu



*əvvəli səh. 1-də*

Pandemiya şərtləri daxilində 2021-ci ildə teatr sahəsində də müəyyən uğurlar oldu. “4.4” Qısa Tamaşalar Festivalı, “Qalib olan Azərbaycan” tamaşalar festivalı, habelə Mədəniyyət Nazirliyinin teatr təhsili sahəsində islahatların aparılması, kadr potensialının yüksəldilməsi məqsədilə “Gənc teatr prodüserləri üçün laboratoriya” layihəsi üzrə Rusiya Dövlət Teatr Sənəti İnstitutu (QİTİS) ilə birgə təşkil etdiyi prodüserlər üçün laboratoriya bu sahənin inkişafı məqsədi daşıyırdı.

***

Bakıda keçirilən VII Bakı Beynəlxalq Kitab Sərgi kitab və nəşriyyat sahəsində bu ilin ən əlamətdar hadisəsi oldu. Builki sərgi “Nizami Gəncəvi İli”nə həsr olunmuşdu. Sərgi çərçivəsində maraqlı təqdimatlar, tanınmış yazarlarla görüşlər təşkil olundu. İl ərzində həmçinin Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə təşkilatçılığı ilə işğaldan azad olunmuş ərazilərdə yaradılacaq kitabxanalar üçün “Qarabağa kitabla gedək” layihəsi üzrə kitab toplama kampaniyası davam etdirilib.

***

Nazir yeni mədəni dəyərlərin yaradılması, yaradıcı sənayelərin inkişafı hədəfi üzrə Azərbaycan Dizaynerlər Assosiasiyası, Azərbaycan Çağdaş İncəsənət İnstitutu və Azərbaycan Yaradıcı Sənayelər Federasiyasının yaradılmasını da 2021-ci ilin uğurları kimi səciyyələndirdi. Anar Kərimov Lənkəran şəhərinin qastronomiya tematikası üzrə UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə daxil edilməsinin də ilin uğurlarından olduğunu dedi. UNESCO ilə əməkdaşlıqda yeni pilot layihələr hazırlandığını bildirən nazir təşkilatla əlaqələrin inkişafında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xidmətlərini xüsusi vurğuladı. Bildirdi ki, gələn il UNESCO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsi üzrə Reprezentativ Siyahısına salınması ilə bağlı “İpəkçilik və toxuculuq üçün ənənəvi ipək istehsalı”, “Sədəf sənəti”, “Pəhləvan – ənənəvi zorxana oyunları və idman növləri”, “Molla Nəsrəddin şifahi xalq ədəbiyyatı”, “Çay mədəniyyəti” və “Balaban sənətkarlığı və ifaçılıq sənətləri” nominasiya faylları üzrə müraciət ediləcək. Həmçinin 2022-ci ildə Fikrət Əmirovun 100, 2023-cü ildə Hacı Zeynalabdin Tağıyevin 200 illik yubileyləri UNESCO-da qeyd ediləcək.

## Mədəniyyətin Qarabağa qaytarılması

Anar Kərimov il ərzində mədəniyyətin Qarabağa qaytarılması, işğaldan azad edilmiş ərazilərin mədəni irsinin və infrastrukturunun bərpası istiqamətində dövlətimiz tərəfindən ardıcıl işlərin həyata keçirildiyini bildirdi. Qeyd etdi ki, işğaldan azad olunmuş Şuşa, Cəbrayıl, Füzuli, Zəngilan, Xocavənd, Qubadlı, Laçın və Kəlbəcər rayonları ərazisində Mədəniyyət Nazirliyi tərəfindən ilkin monitorinqlər aparılıb. Dövlət qeydiyyatında olan 403 tarixi mədəniyyət abidəsinə baxış keçirilib. Eləcə də 162 dövlət qeydiyyatında olmayan tarixi, memarlıq, arxeoloji mənşəli obyektin monitorinqi aparılıb. Şuşada yerləşən 45 abidənin üzərinə məlumat lövhəsi quraşdırılıb, həmçinin abidələrin elektron xəritələri hazırlanıb. Bundan əlavə, il ərzində ölkə üzrə 110 mədəniyyət abidəsinin pasportu və abidələrin mühafizə zonası üzrə 72 layihə təsdiq edilib.

Nazirlik Şuşada Bülbülün Ev-Muzeyinin bərpasına dəstək verib, “Böyük Qayıdış – mədəniyyətin dirçəlişi” beynəlxalq konfransını təşkil edib. Eləcə də Heydər Əliyev Fondu ilə birlikdə Vaqif Poeziya Günləri, “Xarıbülbül” musiqi festivalı, Milli Musiqi Günü və Üzeyir Hacıbəyli Beynəlxalq Festivalının Şuşada da qeyd edilməsi, həmçinin “Qarabağın bərpası: yenidənqurma və inkişaf” sərgisində iştirak nazirliyin bu proseslərin mərkəzində yer alması deməkdir.

## “Nizami ili”nin yaddaqalan tədbirləri

Dövlət başçısının müvafiq sərəncamı ilə 2021-ci ilin dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi şərəfinə “Nizami Gəncəvi İli” elan edilməsi Azərbaycan mədəniyyət və ədəbiyyatının bayramı oldu. Əlamətdar il çərçivəsində Mədəniyyət Nazirliyinin dəstəyi və iştirakı ilə respublikamızda və ölkə xaricində, beynəlxalq təşkilatlarda müxtəlif tədbirlər, təqdimatlar keçirildi. Nizami Gəncəvi Beynəlxalq Festivalı, bu festival çərçivəsində gerçəkləşən Nizami Gəncəvi Beynəlxalq Forumu, “İşıq festivalı. Nizami Gəncəvi” adlı audiovizual layihə, həmçinin tamaşa nümayişləri, konsert və sərgilər əlamətdar ilin yaddaqalan tədbirləri oldu. Eyni zamanda Mədəniyyət Nazirliyinin dəstəyi ilə mütəfəkkir şairin beş poemasının yer aldığı nəşr – “Nizami Gəncəvi. Xəmsə” kitabı Türkiyədə çap edildi.

## Beynəlxalq mədəni əməkdaşlıqda yeni uğurlar

İl ərzində Azərbaycan mədəniyyətinin dünyada təbliği istiqamətində işlərin davam etdirildiyini bildirən nazir dedi ki, həmçinin beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi də diqqətdə saxlanılıb. Azərbaycan mədəniyyətinin müxtəlif sahələri üzrə xarici ölkələrdə keçirilən festival və müsabiqələrdə iştirak təmin edilib. İstedadlı uşaq və gənclər beynəlxalq incəsənət layihələrində uğurlara imza atıblar.

Bu il eyni zamanda beynəlxalq mədəni əməkdaşlıq sahəsində də uğurlarla müşayiət olunub. İCESCO Baş direktorunun ölkəmizə səfəri zamanı işğaldan azad edilmiş ərazilərimizdə olması, Mədəniyyət Nazirliyi tərəfindən irəli sürülən “Mədəniyyət naminə sülh” qlobal kampaniyası, Şuşa şəhərinin qarşıdakı illərdə islam və Türk dünyasının mədəniyyət paytaxtları elan edilməsi ilə bağlı İCESCO və TÜRKSOY-la səmərəli əməkdaşlıq davam etdirilib. Bu il həmçinin UNESCO Baş Konfransının 41-ci sessiyası gedişində Azərbaycan Respublikası 2022-2025-ci illər üzrə təşkilatın İcraiyyə Şurasına üzv seçilib. Ölkəmiz həm də UNESCO-nun Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması üzrə Komitəsinə də üzv olub. Bütün bunlar ölkəmizin beynəlxalq mədəni əməkdaşlıqda etibarlı tərəfdaş kimi tanınmasının bariz nümunəsidir.

## Layihələr, yubileylər

Anar Kərimov qeyd etdi ki, mədəniyyətimizin ölkə daxilində təbliği məqsədilə il ərzində müxtəlif layihələr həyata keçirilib, tədbirlər təşkil olunub. Nazirliyin reallaşdırdığı “Mədəniyyətimizin simaları”, “Xristian irsimizi tanıyaq”, “İslam irsimizi tanıyaq”, “Mədəni yenilənmə”, “Səhnədən səngərə”, habelə Vətən müharibəsinə həsr edilən sənədli filmlərin çəkilişi gənc nəslin maariflənməsinə töhfə vermiş oldu.

Həmçinin görkəmli mədəniyyət xadimlərinin yubiley və xatirə gecələrinin keçirilməsi də mədəniyyətimizin ölkə daxilində təbliğinə xidmət edir. Bu sırada Aşıq Ələsgərin 200, Xan Şuşinskinin 120, Mikayıl Abdullayev və Kamil Əliyevin 100, Tofiq Bakıxanovun 90 və başqa əlamətdar yubiley tədbirləri ictimaiyyət tərəfindən böyük maraqla qarşılandı.

***

Nazir COVİD-19 pandemiyası ilə əlaqədar mədəniyyət sahəsində yaranan çağırışların həll edilməsinin də diqqətdə saxlanıldığını bildirdi. Qeyd etdi ki, kitabxana, qalereya və muzeylər, eləcə də teatr və kino nümayişi müəssisələri ilin əvvəlində fəaliyyətini əsasən onlayn formatda qurdu. Sonralar karantin şərtlərindəki yumşalmalarla müəyyən qaydalara əməl etməklə intensiv fəaliyyət təmin edildi.

Anar Kərimov həmçinin “Davranış mədəniyyəti” layihəsi haqqında da söz açdı. Qeyd etdi ki, layihə mədəni irsimizin qorunması, saxlanılması, dünyaya təbliği, gənc nəslin Azərbaycan mədəni irsindən xəbərdar olması və milli ruhda tərbiyəsi işində Mədəniyyət Nazirliyinin rolunun yenidən formalaşdırılması ilə bağlı strateji göstərişin icrası məqsədi daşıyır. Nazirliyin bu istiqamətdə fəaliyyəti üçün əsas platforma rolunu oynayacaq “Davranış Mədəniyyəti Konsepsiyası”nın hazırlanması üzrə də işlər davam etdirilir.

## “Regionlarda teatrın inkişafında maraqlıyıq”

Daha sonra Anar Kərimov media nümayəndələrinin suallarını cavablandırdı. Regionlardakı muzeylərin fəaliyyəti və eksponatların satın alınması məsələsinə aydınlıq gətirən nazir bildirdi ki, xüsusilə regionlardakı muzeylər, sadəcə, eksponat saxlancı yanaşması ilə çalışır: “Təbii ki, istisnalar var. Şamaxı və Sabirabadda yerləşən muzeylərdə müsbət nəticələr əldə edilib. Biz gələcəkdə bu təcrübəni digər regionlarda olan muzeylərə də tətbiq edəcəyik. Çalışacağıq ki, muzeylər rahatlıqla eksponatları əldə edə bilsinlər. Burada maliyyə məsələləri də nəzərə alınmalıdır”.

Regionlardakı teatrların fəaliyyəti barədə danışan nazir dedi: “Bir sıra bölgə teatrlarının fəaliyyəti istədiyimiz səviyyədə deyil. Teatrın inkişafını bu gün prioritet istiqamətlərdən biri kimi görürük. Regionlarda həm dövlət, həm də xalq teatrlarının olmasını istəyirik. Bu məsələ ilə bağlı regionlara səfərlərimiz olacaq. Hazırda əsas yük paytaxt teatrlarının üzərinə düşür. İstərdik ki, region teatrları da inkişaf etsin. Bu, çox vacib məsələdir”.

Musiqi məktəblərinə işə qəbulla bağlı sualı cavablandıran mədəniyyət naziri gələn ildən musiqi məktəblərinə işə qəbul prosesinin imtahan yolu ilə keçiriləcəyini diqqətə çatdırdı. Bildirdi ki, imtahanların gecikməsinin bir sıra obyektiv və subyektiv səbəbləri var: “Hazırda ölkədə 220-yə yaxın musiqi məktəbimiz var. Təəssüf ki, musiqi məktəblərinə işə qəbulla bağlı nöqsanlar aşkarlanıb. İmtahanların keçirilməsi üçün metodologiya hazırlanmalıdır. İstəyirik ki, Dövlət İmtahan Mərkəzini bu işə cəlb edək. Həmçinin müəllimlərin diaqnostikasının aparılmasını istəyirik və bununla da nöqsanları müəyyən etməyə çalışırıq”.

Hacı Zeynalabdin Tağıyevin abidəsinin açılışı ilə bağlı məsələ barədə danışan nazir dedi ki, abidə hazırdır və açılması ilə bağlı məsləhətləşmələr aparılır. 2023-cü ildə mesenatın anadan olmasının 200 illiyinin keçirilməsi də planlaşdırılır. Həmçinin Mədəniyyət Nazirliyi Bakı Media Mərkəzi ilə birgə böyük xeyriyyəçi haqqında filmin çəkilməsini də nəzərdə tutur.

Gələn il anadan olmasının 130 illiyi tamam olacaq istiqlal şairi Əhməd Cavadla bağlı Mədəniyyət Nazirliyi tərəfindən təkliflər hazırlandığını bildirən nazir eyni zamanda şairin ev-muzeyinin yaradılması məsələsinə də baxılacağını dedi.

“Netflix”lə əməkdaşlıq barədə söz açan nazir bildirdi ki, bununla bağlı müəyyən standartlar var və Azərbaycan filmlərində də bu standartlar nəzərə alınmalıdır. Gələn il “Qarabağ” Futbol Klubu ilə bağlı sənədli filmin də çəkilməsi nəzərdə tutulur. Mədəniyyət naziri Teatr Agentliyinin yaradılması istiqamətində də işlərin aparıldığını diqqətə çatdırdı.

Mətbuat konfransının sonunda xatirə fotosu çəkdirildi.

**Lalə Azəri**

# “Ekspo Dubay” sərgisində Azərbaycan ritmləri və rəqsləri

*əvvəli səh. 1-də*

Anşlaqla keçən konsertin sonunda UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil olan milli rəqsimiz – “Yallı” sədaları altında bütün auditoriya rəqs edib və konsert tamaşaçıların “Qarabağ Azərbaycandır!” şüarı ilə yekunlaşıb.

Tədbirdə ölkəmizi mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyevanın başçılıq etdiyi nümayəndə heyəti təmsil edib.

Konsertdən sonra nümayəndə heyəti “Ekspo Dubay 2020” sərgisinin Azərbaycan pavilyonu ilə tanış olub. Rəqs kollektivimiz Azərbaycan pavilyonunda da kiçik konsert proqramı ilə çıxış edib.




Qeyd edək ki, 190 ölkənin təmsil olunduğu sərgidə Azərbaycan pavilyonu ən çox ziyarət olunan pavilyonlar sırasındadır. Ölkəmiz sərgidə Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə “Gələcəyin toxumları” mövzusu ilə çıxış edir. Üçmərtəbəli, ağac və onun budaqları formasını xatırladan pavilyonun konsepsiyası təsdiq edir ki, yalnız insan kapitalının inkişafı ilə dayanıqlı gələcəyə nail olmaq mümkündür. Pavilyonun səhnəsində konsertlər və müxtəlif mədəni proqramlar təşkil edilir, Azərbaycanın tarixi, coğrafiyası, mədəniyyəti, müasir incəsənəti və digər mövzularda videoçarxlar təqdim edilir. Həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdəki iqtisadi və sosial sahələrdə davamlı inkişaf və innovasiyalar, 44 günlük Vətən müharibəsi nəticəsində işğaldan azad olunmuş torpaqlarımızda aparılan quruculuq işləri haqqında məlumat verilir. Sərgidə ölkəmizin aparıcı muzeylərinin fondlarında qorunub saxlanılan eksponatlar (musiqi alətləri, xalçalar və s.) nümayiş olunur.

Məlumat üçün onu da qeyd edək ki, “Azərbaycan ritmləri və rəqsləri” konserti “Ekspo Dubay 2020”ın rəsmi saytı üzərindən canlı yayımlanıb və mətbuatda işıqlandırılıb.

# Nizaminin irsi ilə ölkəmizi də tanıdırıq

## "Xəmsə"nin nəfis tərtibatlı yeni nəşrinin təqdimatı keçirildi

Dekabrın 27-də Azərbaycan Milli Kitabxanasında "Nizami Gəncəvi. Xəmsə" kitabının təqdimat mərasimi keçirildi.

Tədbiri açıq elan edən Milli Kitabxananın direktoru Kərim Tahirov "Nizami ili" çərçivəsində kitabxananın reallaşdırdığı tədbirlər haqqında məlumat verdi. Diqqətə çatdırdı ki, ölkəmizdə "Nizami ili"nin ilk geniş tədbiri Milli Kitabxanada keçirilmişdi, əlamətdar ilin yekun tədbiri də bu məkanda gerçəkləşir.

Vurğulandı ki, ötən onilliklərdə Nizami Gəncəvinin hər yubileyi ilə bağlı kitablar nəşr olunub. Hər çap olunan kitab bir yadigardır və oxuculara, tədqiqatçılara, nizamişünas alimlərə hədiyyədir. Bu il də böyük şairin 880 illiyi ilə əlaqədar bir neçə kitab işıq üzü görüb. Bu kitablar nəinki bu gün, gələcəkdə də hər zaman tədqiqat mənbəyi olacaq. Gələcək nəsillər Nizami Gəncəvi yaradıcılığına göstərilən diqqətin şahidi olacaqlar. Mədəniyyət Nazirliyinin Türkiyədə nəşr etdirdiyi "Xəmsə" isə "Nizami ili"nə böyük töhfədir.

Direktor qeyd etdi ki, Milli Kitabxananın "Nizami Gəncəvi İli" çərçivəsində ən əhəmiyyətli işi Mədəniyyət Nazirliyi və Heydər Əliyev Fondu ilə birgə həyata keçirdiyi "Milli-mənəvi dəyərlərimizin Vətənə qayıdışı" layihəsi çərçivəsində dünya kitabxanalarında və muzeylərində mühafizə olunan Nizami Gəncəvi əlyazmalarının digital nüsxələrinin Azərbaycana gətirilməsi olub. İndiyədək Azərbaycan elminə və alimlərinə məlum olmayan nüsxələrin də yer aldığı 156 əlyazmanın surətləri Azərbaycana gətirilib. Onların arasında 1312-ci ilə aid ən qədim əlyazma da var və çap edilərək kitabxananın fonduna daxil edilib: "Bunlar nizamişünaslar və digər tədqiqatçılar üçün qiymətli mənbə olacaq. Biz bu istiqamətdə işləri davam etdirəcəyik".

Mərasimdə çıxış edən mədəniyyət naziri Anar Kərimov bildirdi ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə elan edilmiş "Nizami Gəncəvi İli" çərçivəsində bu il ölkəmizdə və xaricdə silsilə tədbirlər keçirilib, nəşr layihələri reallaşıb. Bu gün Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə nəfis şəkildə Türkiyədə çap edilən "Nizami Gəncəvi. Xəmsə" kitabının təqdimatına toplaşmışıq.





Nazir qeyd etdi ki, Prezident İlham Əliyevin Azərbaycanın görkəmli şəxsiyyətlərinin yaradıcılığına və onların irsinin yaşadılmasına göstərdiyi diqqət və qayğı mədəniyyətimizin beynəlxalq arenada tanıdılması üçün çox mühüm amildir: "Biz bu şəxsiyyətlər vasitəsilə ölkəmizi tanıdırıq. Nizami Gəncəvi təkcə Azərbaycan şairi deyil, o həm də ümumbəşəri dəyərə malik bir şəxsiyyətdir. Biz il ərzində dahi şairin 880 illiyi ilə əlaqədar çoxlu tədbirlər, konsertlər, tamaşalar, layihələr təşkil etmişik. Əlamətdar ilin yaddaqalan tədbirlərindən biri də Nizami Gəncəvi Beynəlxalq Festivalı oldu. Festival çərçivəsində təşkil olunan Nizami Gəncəvi Beynəlxalq Forumunda bir sıra ölkələrdən elm adamları və sənətşünaslar iştirak etdi. Tədbirlərdə dahi şairin zəngin yaradıcılığının müxtəlif istiqamətlərindən danışıldı, yeni elmi faktlar səsləndirildi. Bundan əlavə, il ərzində bir sıra ölkələrdə şairin büstləri qoyuldu. Nizami Gəncəvi təkcə ədəbi-mədəni hadisə deyil, o həm də xalqları, ölkələri yaxın edən mədəni-siyasi önəmə malik fenomendir".

"Nizami Gəncəvi. Xəmsə" kitabının əhəmiyyətindən danışan nazir qeyd etdi ki, nəşrdə ilk dəfə olaraq şairin əsərləri əsasında çəkilən miniatürlər də yer alıb.

Anar Kərimov onu da diqqətə çatdırdı ki, Nizami Gəncəvinin "Leyli və Məcnun" poeması əsasında yeni film çəkilir. Hazırda istehsalat mərhələsində olan filmin təqdimatı gələn ilə nəzərdə tutulur.

Xalq yazıçısı Elçin "Nizami ili" çərçivəsində ölkəmizdə reallaşan tədbirlərin önəmini qeyd etdi: "Hər bir xalqın ədəbiyyat və incəsənət xadiminin təbliği, eyni zamanda o xalqın özünün və tarixinin təbliğidir. Nizami Gəncəvinin təqdimatı, bir Azərbaycan şairi kimi, böyük əhəmiyyət daşıyır. Aradan 880 il ötməsinə baxmayaraq, Nizami Gəncəvi haqqında çoxsaylı kitablar yazılıb, araşdırmalar aparılıb və bu ənənə davam edir. Nizami o qədər müasir şairdir ki, öz doğma Azərbaycanında heykəltəraşlığın, musiqinin, rəngkarlığın, opera və baletin inkişafında müstəsna rol oynayıb. Bu gün əgər dünyanın ən qədim təhsil ocaqlarından olan Oksford Universitetində Nizami Gəncəvinin adına mərkəz yaradılırsa, bu özü Azərbaycanın təbliğidir".

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva çıxışında diqqətə çatdırdı ki, bundan sonra neçə-neçə əsrlər ötsə də, yeni nəsil azərbaycanlılar böyük şair Nizami Gəncəvi ilə fəxr edəcəklər: "Nizaminin yaradıcılığında Azərbaycan xalqının əxlaqı, mədəniyyəti və dünyaya, insanlığa baxışı var. Ona görə də belə böyük şəxsiyyətin adı ilə keçirilən hər bir tədbir çox qiymətlidir. Mən ümummilli lider Heydər Əliyevi hörmətlə anmaq istəyirəm. Çünki Nizami Gəncəvi irsinin araşdırılması, təbliği istiqamətində onun müstəsna xidmətləri olub. Cənab Prezidentimiz İlham Əliyevə təşəkkür edirəm. Ona görə ki, bu ilin "Nizami Gəncəvi İli" elan edilməsi, sadəcə, mədəni hadisə deyildi, həm də çox önəmli siyasi hadisə idi. Dövlətimizin başçısı Nizami irsinin araşdırılması və təbliği yönündə çox böyük dəstək göstərdi. Birinci vitse-prezident Mehriban xanım Əliyevaya da təşəkkür edirəm. Xaricdə Nizami Gəncəviyə qoyulan abidələrin sayı artır. Onun irsinin təbliği istiqamətində işlər daha da genişlənir. Burada da hörmətli Mehriban xanımın rolu olduqca böyükdür".

"Nizami Gəncəvi İli"nin çox önəmli tədbirlərlə yadda qaldığına diqqət çəkən Qənirə Paşayeva görülən işlərə görə Mədəniyyət Nazirliyinə təşəkkür etdi.

Milli Məclisin deputatı, akademik Nizami Cəfərov şairin zəngin yaradıcılığından, əsərlərinin səciyyəvi xüsusiyyətlərindən və tədqiqindən söz açdı. Nizami əsərlərini tərcümə edən Məmməd Rahim, Rəsul Rza, Səməd Vurğun, Abdulla Şaiq, Mikayıl Rzaquluzadə kimi görkəmli ədibləri yad etdi. Alim yeni nəşr olunan kitabda Xəlil Rzanın tərcüməsinin də yer almasını fərqli baxış olaraq yüksək qiymətləndirdi.

Təqdimatdan sonra Anar Kərimov Nizami Gəncəvi irsinin təbliğində xidmətlərinə görə və böyük mütəfəkkirin 880 illiyi münasibətilə Xalq şairi Nəriman Həsənzadə, Xalq yazıçıları Elçin, Afaq Məsud, professor Kərim Tahirov, Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəisi Faiq Xudanlı və "Söz" ədəbi layihəsinin müəllifi Nigar Həsənzadəyə Mədəniyyət Nazirliyinin təsis etdiyi "Nizami Gəncəvi xatirə nişanı"nı təqdim etdi.

**L.Azəri**

## Xatirə nişanları təqdim olunub

Mədəniyyət Nazirliyinin müvafiq əmri ilə təltif olunan tanınmış elm, ədəbiyyat xadimləri və yerli nəşriyyat nümayəndələrinə "Nizami Gəncəvinin 880 illiyi (1141 – 2021)" xatirə nişanlarının təqdim olunması mərasimi keçirilib.

Milli Kitabxanada təşkil olunan tədbirdə mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev xatirə nişanı ilə bağlı məlumat verib. Bildirib ki, ölkə başçısının "Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında" 5 yanvar 2021-ci il tarixli sərəncamına əsasən, Nazirlər Kabinetinin müvafiq tarixli sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planının icrası ilə əlaqədar Mədəniyyət Nazirliyi tərəfindən "Nizami Gəncəvinin 880 illiyi (1141 – 2021)" xatirə nişanı təsis edilib. Xatirə nişanı Nizami irsinin təbliği və tanıdılmasında mühüm xidmətləri olan şəxslərə təqdim olunur.



Çıxış edənlər "Nizami ili"ndə görülən işlərdən bəhs edib, Nizami irsinin hər zaman öyrənilməsinə və gənc nəslə tanıdılmasına ehtiyac olduğunu vurğulayıblar.

Sonda mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev elm, ədəbiyyat xadimləri və nəşriyyat nümayəndələrinə xatirə nişanlarını təqdim edib.

# "Kreativ Azərbaycan Könüllüləri" Hərəkatı yaradılıb

Mədəniyyət Nazirliyi və Azərbaycan Yaradıcı Sənayelər Federasiyasının (AYSF) birgə layihəsi olan "Kreativ Azərbaycan Könüllüləri" Hərəkatı yaradılıb. Dekabrın 25-də Milli Xalça Muzeyində hərəkatın təqdimatı keçirildi.

Tədbirdə Mədəniyyət Nazirliyinin Aparat rəhbəri, AYSF İdarə heyətinin sədri Vasif Eyvazzadə, nazirliyin Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri Ramil Abbəkirov və könüllülər iştirak edirdilər.

Tədbirdə hərəkatın üzvləri ilə tanışlıq oldu, layihənin saytının təqdimatı da gerçəkləşdi.

Nazirliyin şöbə müdiri Ramil Abbəkirov "Kreativ Azərbaycan" layihəsi haqqında məlumat verdikdən sonra "Kreativ Azərbaycan Könüllüləri" Hərəkatının koordinatoru Vüsal Kərimovu könüllülərə təqdim etdi. Bildirdi ki, könüllülər bu sahədə də inkişafa öz töhfələrini verəcəklər.

Mədəniyyət Nazirliyinin Aparat rəhbəri və AYSF İdarə heyətinin sədri Vasif Eyvazzadə çıxış edərək bildirdi ki, ölkəmizdə bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də dövlət siyasətinin həyata keçirilməsində könüllülərin böyük rolu olub. Mədəniyyət Nazirliyi və Azərbaycan Yaradıcı Sənayelər Federasiyası mədəniyyət və yaradıcı sənayelərə dair mədəni-kütləvi yerli və beynəlxalq tədbirlər, aidiyyəti üzrə araşdırmalar, seminarlar və digər istiqamətlərdə könüllülərin rolunu artırmaq məqsədilə "Kreativ Azərbaycan Könüllüləri" Hərəkatının yaradılmasına, həmçinin qurumun saytının hazırlanmasına dəstək olub: "Kreativ Azərbaycan Könüllüləri" Hərəkatının təsis edilməsində əsas məqsəd mədəniyyət sahəsinə könüllüləri cəlb edərək bu sahənin əhatə etdiyi bütün istiqamətlərin inkişafının bir parçası olmaqdır. Hərəkata qoşulmaq istəyən gənclər üçün sosial şəbəkələr üzərindən qeydiyyat üçün yaradılmış anket forması yayılıb. Qısa müddət ərzində 500-dən çox yaradıcı şəxs qeydiyyatdan keçib. Yaradılmış seçim komissiyası tərəfindən təyin olunmuş meyarlara əsasən qiymətləndirmə zamanı qeydiyyatdan keçənlərin arasından 30 istedadlı, yaradıcı şəxs kreativ Azərbaycan könüllüsü seçilib. Seçilən könüllülər paytaxt, eləcə də ölkəmizin müxtəlif regionlarını və həmçinin yaradıcılığın fərqli sahələrini əhatə edir".



Qeyd edildi ki, hərəkat yaradıcılığın müxtəlif sahələri ilə məşğul olan insanları könüllülük fəaliyyətinə cəlb etmək, onların ölkənin mədəni həyatında iştirakına imkan yaratmaq, vahid bazasını formalaşdırmaq məqsədi daşıyır.

Vasif Eyvazzadə daha sonra könüllülərin hər birinin təhsili, çalışdığı sahə ilə bağlı məlumat alaraq onlarla qısa fikir mübadiləsi apardı.

Tədbirin sonunda könüllülərə vəsiqə və xüsusi geyimlər təqdim olundu.

**Lalə**

## Bölgələrdən xəbərlər

# "Nizami sözünün işığında"

Xaçmaz Regional Mədəniyyət İdarəsi (RMİ) Bəşir Səfəroğlu adına Quba rayon Mədəniyyət Mərkəzində "Nizami inciləri" adlı teatrlaşdırılmış kompozisiya nümayiş olunub. Tədbirdə həmçinin rayon Mədəniyyət Mərkəzi "Art" yaradıcılıq studiyasının Nizaminin eyniadlı mənzum hekayəsi əsasında lentə aldığı "Kərpickəsən kişinin dastanı" qısametrajlı bədii filminin premyerası keçirilib.



Şəmkir RMİ Göygöl rayonu üzrə nümayəndəliyin təşkilatçılığı ilə Nizaminin 880 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Tədbirdə şairin "Kərpickəsən kişinin dastanı" və "Xeyir və Şər" əsərləri əsasında səhnəciklər göstərilib.



Lənkəran RMİ Lerik şəhər Mədəniyyət Mərkəzində "Nizami sözünün işığında" adlı ədəbi-musiqili tədbir keçirilib. İdarə rəisi Şahin Şahbazovun da iştirak etdiyi tədbirdə şairin sözlərinə bəstələnmiş mahnılar və muğamlar ifa edilib. Lerik rayon Mədəniyyət Mərkəzində fəaliyyət göstərən dram dərnəyi üzvlərinin hazırladığı səhnəcik tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanıb.

Kürdəmir, Sabirabad, İsmayıllı, Şəki və Gəncə regional mədəniyyət idarələrinin birgə təşkilatçılığı ilə keçirilən "Xəmsə" yolu" layihəsinə yekun vurulub. Layihənin son tamaşası İmişli Mədəniyyət Mərkəzində nümayiş olunub. Tamaşada Nizaminin "Leyli və Məcnun", "Xosrov və Şirin", "İskəndərnamə" əsərlərindən bəzi hissələr canlandırılıb.

Sabirabad RMİ Şirvan şəhər Mədəniyyət Mərkəzində Nizaminin 880 illiyi ilə bağlı keçirilən tədbirdə Şirvan ŞİH-nin başçısı İlqar Abbasov və idarə rəisi Fərid Qurbanzadə iştirak ediblər. Mərkəzin həvəskar aktyorları tərəfindən "Xosrov və Şirin" poemasının motivləri əsasında tamaşa təqdim olunub.

Gəncə RMİ və şəhərdəki Nizami Gəncəvi muzeyinin birgə təşkilatçılığı ilə əlamətdar ilin yekun tədbiri keçirilib. Tədbirdə çıxış edən idarə rəisi Vasif Cənnətov dahi şairin 880 illiyi ilə bağlı il ərzində gerçəkləşən tədbirlərdən söz açıb. Daha sonra Gəncə Dövlət Filarmoniyası "Göygöl" Dövlət Mahnı və Rəqs Ansamblının muğam üçlüyü musiqi nömrələri səsləndirib.



Ağdaş RMİ Ağdaş rayon Heydər Əliyev Mərkəzində Ələsgər Qurbanovun "Ayı balasının qoçaqlığı" əsərinin motivləri əsasında səhnələşdirilmiş, Mirzə Nicatın quruluş verdiyi "Pələng balasının qış nağılı" adlı uşaq tamaşası nümayiş etdirilib. Mingəçevir Dövlət Dram Teatrı aktyorlarının iştirak etdiyi tamaşa uşaqlar tərəfindən böyük maraqla qarşılanıb.

Ağcabədi RMİ Ağdam rayon Rahib Məmmədov adına Döyüş Şöhrəti Muzeyində Fransanın azərbaycanlı Milli Qəhrəmanı Əhmədiyyə Cəbrayılovun (1920-1994) anım günü münasibətilə "Biz sizdən öyrəndik qəhrəmanlığı" adlı tədbir keçirilib. Tədbirdə əfsanəvi partizan haqqında videoçarx göstərilib, məktəblilər Vətənə, qəhrəmanlığa aid şeirlər söyləyiblər.

Kürdəmir RMİ Beyləqan rayon Heydər Əliyev Mərkəzində Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə şəhid övladları üçün "Mənim atam qəhrəmandır" adlı bayram tədbiri keçirilib. Beyləqan rayon Mədəniyyət Mərkəzinin Xalq teatrı aktyorlarının hazırladıqları "Nənənin nağılları", "Dovşanın sərgüzəştləri" və vətənpərvərlik mövzusunda səhnəciklər uşaqların sevincinə səbəb olub.

# Toplantılar, yubiley və bayram tədbirləri

Bərdə RMİ Mingəçevir şəhər Uşaq incəsənət məktəbində şəhid ailələrinin övladları üçün bayram şənliyi keçirilib. Tədbir müxtəlif cizgi film personajlarının və şən klounların rəngarəng çıxışları ilə yadda qalıb.



Sumqayıt RMİ Sumqayıt şəhər Heydər Əliyev Mərkəzində 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə şəhid və qazi övladları üçün bayram şənliyi təşkil olunub.



Gəncə RMİ Gəncə şəhər F.Əmirov adına 1 nömrəli Uşaq musiqi məktəbində keçirilən bayram tədbirində məktəbin Nəzəriyyə şöbəsinin müəllim və şagirdləri tərəfindən səhnəcik, mahnı və rəqslər təqdim edilib.

Masallı RMİ-də 2021-ci ilin yekunlarına həsr olunmuş hesabat yığıncağı keçirilib. İdarənin məsul əməkdaşlarının və mədəniyyət müəssisələrinin rəhbər işçilərinin iştirak etdiyi iclasda il ərzində görülmüş işlər müzakirə edilib, növbəti il üzrə əsas prioritetlər müəyyən olunub.

İsmayıllı RMİ Ağsu rayon Mədəniyyət evinin təşkilatçılığı ilə "Sazlı-sözlü Dədə Ələsgər" adlı tədbir keçirilib. Sənətkarın 200 illiyinə həsr olunan tədbirdə ustadın şeirlərindən nümunələr səsləndirilib, Aşıq Ələsgərin sözlərinə yazılmış mahnılar və aşıq havaları ifa olunub.



Biləsuvar RMİ Biləsuvar rayon Heydər Əliyev Mərkəzində xalçaçılıq sənəti ilə maraqlananlar üçün ustad dərsləri keçirilib. Tədbirdə çıxış edən idarə rəisi Əlisultan Sadıxov xalçaçılıq sənətinin xalqımızın mənəvi irsinin formalaşmasında əhəmiyyətli rol oynadığını bildirib.

Ağstafa RMİ Tovuz rayon Heydər Əliyev Mərkəzində Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş "Gücümüz birlikdədir" adlı bayram tədbiri keçirilib. Müəllim və şagirdlərin ifasında konsert proqramı maraqla qarşılanıb.

**Hazırladı: Nurəddin**

№96 (1873)
29 dekabr 2021
www.medeniyyet.az

*əvvəli səh. 1-də*

# İlin teatr fraqmentləri və yaddaşlara yazılan yubiley

Öz tamaşa planlarına yenidən nəzər salan, bərpa və yeni səhnə işlərini tamaşaçı müzakirəsinə çıxarmaq üçün çalışan teatrlar da oldu. Akademik Opera və Balet və Akademik Milli Dram teatrları daha çox bərpa olunan balet, opera və dram tamaşaları ilə teatrsevərlərin diqqətini cəlb etməyə çalışdılar.

Akademik Musiqili və Rus Dram teatrlarında premyeralar oldu. Dövlət Gənc Tamaşaçılar Teatrı da aktiv yaradıcılıq dövrü yaşadı və yeni tamaşaları ilə müxtəlif səhnələrdə (əsas zalları təmir olunur) tamaşaçılarını qarşıladı.

Pantomim və Yuğ teatrları isə daha çox köhnə tamaşalarına yenidən əl gəzdirməyə çalışdılar. Pandemiyadan öncə premyerası keçirilən nümunələri yenidən tamaşaçı ilə görüşdürdülər.

Dövlət Kukla Teatrı 90 illik yubiley mövsümündə premyera və sosial aksiyalarını davam etdirdi. Sumqayıt, Lənkəran, Gəncə, Ağdam, Şuşa, Mingəçevir teatrlarının premyera, ölkədaxili səfər, təcrübə mübadiləsi xəbərləri gəldi. Ümumi prosesdə Salyan, Qax, Qusar teatrları da yadda qaldılar.







### 90 yaş və böyük tamaşaçı sevgisi

Bildiyiniz kimi, bu il həm də milli kukla sənətimizin təşəkkül və inkişafında müstəsna yeri olan Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının 90 illik yubileyidir. Elə ilin son yubiley tədbiri də bu teatrın səhnəsində oldu.

Dekabrın 26-da uşaqlı-böyüklü xeyli sayda tamaşaçı, teatrsevər teatrın tamaşa salonunda toplaşaraq həm səhnədəkiləri, həm də özlərini alqışladılar.

Mədəniyyət Nazirliyinin təmsilçiləri, tanınmış mədəniyyət və incəsənət nümayəndələrinin iştirak etdiyi yubiley gecəsində ilk olaraq mədəniyyət naziri Anar Kərimovun kuklaçılara təbrik məktubu oxundu.

Zəngin yaradıcılıq yolu keçən sənət ocağının uğurlarına nəzər salınan məktubda deyilir: "Bu yubiley sizin kollektivin ötən illərdəki səmərəli fəaliyyətinin bəhrəsidir. Sizin uğurlu çıxışlarınız, ayrı-ayrı beynəlxalq və respublika miqyaslı festivallarda qazandığınız nailiyyətlər Kukla Teatrının adını milli teatrımızın aparıcı sənət kollektivləri sırasına çıxarmışdır. Repertuarınızdakı səhnə əsərləri hər zaman azyaşlı tamaşaçıların məhəbbətini qazanmışdır".

Məktubun sonunda nazir teatrın kollektivinə cansağlığı və yeni yaradıcılıq uğurları arzulayırdı.

Yubiley tədbirində çıxış edən mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev yola salmağa hazırlaşdığımız 2021-ci ilin maraqlı yubiley tədbirləri ilə yadda qaldığını bildirdi. Dedi ki, 44 günlük Vətən müharibəsində Azərbaycan xalqının Ordusunun qazandığı Qələbə bütün xalqımızın, xüsusən yaradıcı insanların əzmini, inam və gücünü daha da artırıb.

Elnur Əliyev qeyd etdi ki, milli-mənəvi dəyərlərin təbliğatında, yetişən nəsillərin teatr sənətinə sevgi ruhunda formalaşmasında Kukla Teatrı təmsilçilərinin xüsusi rolu var: "Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı, ümumiyyətlə, ölkəmizin teatr mühitində vacib bir fenomendir. Çünki uşaqların zövqünü formalaşdıran, onlarda bu sahəyə maraq yaradan Kukla Teatrıdır".

Hazırda yaradıcı sənayenin aparıcı qolu olan teatr sənətinin, ümumilikdə incəsənətin televiziya və kompüter, telefon ekranları ilə rəqabətdə olduğunu deyən Elnur Əliyev bildirdi ki, bu rəqabətdə üstünlüyü saxlamaq üçün canlı ünsiyyət mühüm amildir. Canlı tamaşalar həm də uşaqlarda milli dəyərlərin formalaşması baxımından vacibdir: "İnanırıq ki, Kukla Teatrı bu rəqabəti nəzərə alıb işini gələcəkdə də öz prinsip və ənənələrinə uyğun quracaq, balaca tamaşaçılar üçün daim maraqlı məkan olacaq. Kukla Teatrının bütün kollektivinə möhkəm cansağlığı, yaradıcılıq sahəsində yeni nailiyyətlər arzulayıram".

Sonra teatrın kollektivindən Əməkdar artist Rəhman Rəhmanov, aparıcı səhnə ustası Elmira Hüseynova, Ülviyyə Əliyeva və Sona Quliyevaya Mədəniyyət Nazirliyinin fəxri fərmanları təqdim edildi.

Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) sədr müavini, Xalq artisti Hacı İsmayılov çıxış edərək ittifaqın rəhbəri, Xalq artisti Azər Paşa Nemətovun Kukla Teatrının kollektivinə təbriklərini çatdırdı. O, Kukla Teatrının məhsuldar fəaliyyəti, zəhmətkeş kollektivi, zəngin repertuarı, yaratmış olduğu səhnə ənənələrindən söz açdı. Sonra teatrın yaradıcı heyətinin bir qrupuna ATXİ-nin fəxri fərmanları təqdim olundu.

Yubiley gecəsində teatrın repertuarındakı ən yaddaqalan tamaşalardan ibarət səhnələşdirilmiş kompozisiya təqdim edildi. Tamaşa arası səhnədə 90 il bundan əvvəl ilk kuklaçı Mollağa Bəbirlinin hazırladığı kuklaların fotoşəkilləri proyeksiyada nümayiş olundu. Böyük ekranda Səudiyyə Ərəbistanı, Rusiya, Hindistan və digər ölkələrdə fəaliyyət göstərən kukla teatrları rəhbərlərinin təbrikləri nümayiş etdirildi.

Salyan, Gəncə və Qax Dövlət Kukla teatrlarının rəhbərləri də səhnəyə çıxaraq həmkarlarını təbrik etdilər. Dövlət Gənc Tamaşaçılar Teatrının yubileyə töhfə olan səhnəciyi də böyük maraqla qarşılandı.

Qonaqlara və sadiq kuklasevərlərə təşəkkürünü bildirən teatrın direktoru, Əməkdar mədəniyyət işçisi Rəşad Əhmədzadə bu qədim və mürəkkəb səhnə sənətinin yaşadılması və layiqincə təmsil olunması üçün əllərindən gələni edəcəklərini dedi.

Tədbirin sonunda səhnə arxasında yaradıcı heyətlə görüşən mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev onları bir daha təbrik etdi, xoş arzularını çatdırdı.

**Həmidə Nizamiqızı**

## İrəvan teatrı mövsümü açıb

Dekabrın 27-də Binəqədi Mərkəzi Mədəniyyət Evində Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının 140-cı mövsümünün açılışı olub.



Tədbirdə Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Sevinc Süleymanova, digər qonaqlar, "N" saylı hərbi hissənin əsgər və zabit heyəti, rayonun mədəniyyət müəssisələrinin işçiləri iştirak ediblər.

Teatrın direktoru, Əməkdar mədəniyyət işçisi İftixar Piriyev tədbiri açaraq zəngin tarixə malik sənət ocağının yaradıcılıq fəaliyyəti haqqında məlumat verib, dövlətimiz tərəfindən teatra göstərilən diqqət və qayğıdan bəhs edib. Teatrın Türkiyə, Gürcüstan, Dağıstan, ölkəmizin müxtəlif bölgələri və eləcə də Naxçıvan Muxtar Respublikası ilə sıx sənət əlaqələri olduğu diqqətə çatdırılıb.

Qonaqlardan Binəqədi Rayon icra başçısının müavini Sevinc Süleymanova, YAP rayon təşkilatının sədri Vüsar İsmayılov çıxış edərək İrəvan teatrı ilə birgə keçirilən tədbirlərdən söz açıb və yeni mövsümün açılışı münasibətilə kollektivi təbrik ediblər.

Sonra V.Siqarevin "Şeytan ailəsi" əsəri əsasında hazırlanmış tamaşanın ilk nümayişi olub.

# Kitabxanalar il ərzində maraqlı layihələr həyata keçiriblər

Son günlərini yaşadığımız 2021-ci il ölkəmizdə mədəniyyət sahəsində bir sıra əlamətdar hadisələrlə yaddaşlara yazıldı. Ölkəmizin aparıcı kitabxanaları əlamətdar mədəniyyət hadisələri, yubileylərlə bağlı müxtəlif layihələr, tədbir və təqdimatlar həyata keçiriblər.

Azərbaycan Milli Kitabxanası, reallaşdırdığı əhəmiyyətli layihələrlə bərabər, Mədəniyyət Nazirliyi ilə birgə kitab toplama kampaniyasına – "Qarabağa kitabla gedək" adlı layihəyə də başlayıb. Məqsəd işğaldan azad olunmuş ərazilərdə kitabxanaların fondlarının bərpasına kömək göstərməkdir. İl ərzində həm elm və ədəbiyyat adamları, həm də müxtəlif qurumlar layihəyə dəstək olub, çoxsaylı nəşrləri kitabxanaya təqdim ediblər.

Milli Kitabxana "Nizami Gəncəvi İli" münasibətilə dahi şairin əhatəli biblioqrafiyasını yenidən nəşr etdirib. Bundan əlavə, Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş elektron məlumat bazaları hazırlanıb, sərgi və təqdimatlar keçirilib. Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu ilə birgə təşkil edilən "Milli-mənəvi dəyərlərimizin Vətənə qayıdışı" layihəsi çərçivəsində dünya kitabxanalarında və muzeylərində mühafizə olunan Nizami Gəncəvi yaradıcılığına aid əlyazmaların digital nüsxələrinin ölkəmizə gətirilməsi istiqamətində işlər davam etdirilib. Layihə üzrə indiyədək Azərbaycan elminə məlum olmayan nüsxələrin də yer aldığı 156 əlyazmanın rəqəmsal surətləri ölkəmizə gətirilib. Həmçinin, qeyd edək ki, il ərzində Milli Kitabxanada görkəmli şəxsiyyətlərin yubileyləri, əlamətdar günlərə həsr edilən 25 adda elektron məlumat bazası, eləcə də onlarla virtual sərgi hazırlanaraq istifadəçilərə təqdim olunub.

***

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası il ərzində "Nizami ili", Zəfər Günü, Aşıq Ələsgərin 200 illiyi və digər əlamətdar hadisələrlə bağlı müxtəlif tədbirlər həyata keçirib. Videoçarxlar hazırlanıb, müsabiqələr təşkil olunub, biblioqrafik vəsaitlər hazırlanaraq kitabxananın sosial şəbəkələrdəki səhifələrində oxuculara təqdim edilib.

Kitabxana tərəfindən həyata keçirilən "Bakını qarış-qarış" adlı layihə çərçivəsində silsilə materiallar hazırlanaraq istifadəçilərin ixtiyarına verilib. Həmçinin "Bakı kitablarda" virtual kitab sərgisi, eləcə də Azərbaycan paytaxtının müasir simasını təşkil edən tikililər haqqında videoçarxlar hazırlanaraq yayımlanıb.

Gənclər Kitabxanasının 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan mətbuatının fəaliyyətinə diqqət yönəltmək məqsədilə haqq savaşımızın yerli mətbuatda xronikasına dair virtual sərgisi də ilin diqqətçəkən layihələrindən olub. Sərgidə 44 gün boyunca Azərbaycan mətbuatında müharibəyə həsr olunmuş materiallar yer alıb.

***

F.Köçərli adına Respublika Uşaq Kitabxanası da 2021-ci ili müxtəlif tədbir və layihələrlə, virtual təqdimatlarla başa vurub. "Qonağım ol" layihəsi çərçivəsində oxucular kitabxananın sosial şəbəkələrdəki hesabları üzərindən uşaq yazarları, rəssam, tərcüməçi, psixoloq və tədqiqatçı, naşirlərlə canlı yayım vasitəsilə görüşərək müasir dövr kitabxana fəaliyyətini təşkil etmək sahəsində mühüm məlumatlar əldə ediblər.

Kitabxana Vətən müharibəsinin birinci ildönümü münasibətilə vətənpərvərlik mövzulu layihələr həyata keçirib. Zəfər Gününə həsr olunmuş "Rəşadətlə yaşayanlar – ölümü fəth edənlər" adlı ümumrespublika hekayə müsabiqəsi çərçivəsində təqdim olunan hekayələr arasından seçilən 25 nümunə "Ölümü fəth edənlər" adlı kitaba daxil edilib.

Respublika Uşaq Kitabxanasının "Nizami Gəncəvi İli" ilə bağlı həyata keçirdiyi "Dünyada söz olmasa, nəyə gərək düşüncə" adlı festival əlamətdar ilə maraqlı töhfə olub. Festival çərçivəsində rəsm, şeir və musiqi günləri təşkil edilib.

***

İl ərzində Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində fəaliyyət göstərən MKS-lərin mərkəzi kitabxanaları və filialları, həmçinin regional mədəniyyət idarələrinin əhatə etdiyi kitabxanalarda da müxtəlif tədbirlər keçirilərək kitabxanaların saytında və sosial şəbəkə hesablarında oxuculara təqdim olunub.

**Nurəddin Məmmədli**

# Muzey və qalereyalar 2021-ci ildə

2021-ci il pandemiya məhdudiyyətləri ilə müşayiət olunsa da, ümumiyyətlə, mədəni proses davam etdi, mədəniyyət ocaqları müxtəlif layihələr həyata keçirdilər. Paytaxtın aparıcı muzey və qalereyalarının builki fəaliyyətinə qısa nəzər saldıq.

***

Bu il Milli İncəsənət Muzeyinin maddi-texniki bazasının möhkəmləndirilməsi baxımından əlamətdar olub. Muzeyin Rəngkarlıq fondunda rəsm əsərlərinin yerləşdirilməsi üçün daha əlverişli, müasir tələblərə cavab verən şərait yaradılıb. Rəsm əsərlərini səliqəli, müasir standartlara uyğun şəkildə yerləşdirməklə 55 kvadratmetrlik sahədə xüsusi stellajlar vasitəsilə 225 rəsm əsərinin saxlanılması təmin olunub.

Muzeydə "Novruz ahəngi" sərgisi keçirilib. "Pol Nadar: Bakıya əsrarəngiz səyahət" adlı fotosərgi tamaşaçıları 130 il öncənin Bakısına aparıb. "Muzey kolleksiyalarının toplanması" mövzusunda beynəlxalq konfrans, VII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində muzeyin direktoru, Əməkdar incəsənət xadimi, professor Çingiz Fərzəliyevin XIII əsr miniatürlərinə həsr edilmiş "Vərqa və Gülşa" kitab-albomunun təqdimatı keçirilib. "Həyata sevgi ilə: Mikayıl Abdullayev" sərgisi isə SSRİ Xalq rəssamının 100 illik yubileyinin qeyd olunması haqqında dövlət başçısının müvafiq sərəncamına əsasən təşkil edilib. Zəfərimizin ildönümünə həsr edilən "Mədəniyyətimizin incisi – Qarabağ" sərgisi də muzeyin yaddaqalan layihələrindən olub.

***

Muzey Mərkəzində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş "Xocalıda can qaldı", 20 Yanvar faciəsinə həsr olunmuş "Xatırlayın, yaşadın, unutmayın!" adlı sərgilər keçirilib. Bundan əlavə, il ərzində "Digital Art Lab" layihəsi üzrə sərgilər, Xalq rəssamı Böyükağa Mirzəzadənin anım gününə həsr olunmuş tədbir, "Bakı qızları" adlı virtual sərgi, Zəfərimizin ildönümü münasibətilə sərgi və s. tədbirlər təşkil edilib.

***

Azərbaycan Milli Xalça Muzeyi il ərzində beynəlxalq layihələrdə, sərgilərdə iştirak edib, müxtəlif tədbir və layihələr həyata keçirilib. Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Milli Xalça Muzeyinin təşkilatçılığı ilə Nizami Gəncəvinin 880 illiyi münasibətilə beynəlxalq xalça eskizi müsabiqəsi reallaşıb. "Novruz naxışları", "Pişiklər batikada", "Zənginləşən xəzinəmiz" və s.





sərgilər, həmçinin ustad dərsləri təşkil olunub. "Xalçaçı günü" peşə bayramı münasibətilə "Ənənələrimizi yaşadanlar" adlı tədbir keçirilib. Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq Xalq rəssamı Kamil Əliyevin 100 illiyinə həsr olunmuş "Kamil Əliyev: rəssam və dövr" adlı sərgi də sənətkarın yubileyinə töhfə kimi yaddaşlara yazılıb.

***

İstiqlal Muzeyi əsasən vətənsevərlik ruhlu layihələr həyata keçirib. 44 günlük Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə həsr olunmuş "Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün" adlı layihə üzrə silsilə tədbirlər il ərzində davam edib. Layihə çərçivəsində "Laçın qartalları", "Cəsurlar", "Vətən uğrunda", "Şahinlər", "Mübarizlər", "Əbədiyyət ünvanı – şəhidlik" və s. sərgi və tədbirlər qəhrəman Vətən övladlarının əziz xatirəsinin yaşadılmasına xidmət edir. Bundan əlavə, "Örnək miras", "Zəfər qəhrəmanları", "İstiqlala gedən yol" və s. sərgi və tədbirlərlə də milli tarixi yaddaşa işıq salınıb.

***

AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyi də il ərzində Vətən fədailərinin qəhrəmanlıq irsinin qorunub saxlanılması və təbliği məqsədilə işlər həyata keçirib. "Anadır arzulara hər zaman Qarabağ" adlı sərgidə 2020-ci ilin iyulunda baş vermiş Tovuz döyüşlərinin iki qəhrəmanı – general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyev, həmçinin Vətən müharibəsinin 101 şəhid və qazisinin əşyaları nümayiş olunub. Dahi Azərbaycan şairinin 880 illiyi münasibətilə "Nizami Gəncəvi və Azərbaycan Atabəyləri dövləti" adlı sərgi təşkil olunub.

Qeyd edək ki, Musiqi Mədəniyyəti Dövlət Muzeyi, Dövlət Teatr Muzeyi, görkəmli şəxsiyyətlərin ev-muzeyləri, memorial muzeylər də il ərzində müxtəlif səpkili tədbirlərə ev sahibliyi ediblər.

***

Azərbaycan Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə il ərzində müxtəlif layihələr həyata keçirilib. Mədəniyyət Nazirliyi və qalereyanın təşkilatçılığı ilə "Nizami Gəncəvinin əsərləri təsviri sənətdə" mövzusunda respublika elmi konfransı gerçəkləşib, "Art Management" adlı silsilə tədbirlər həyata keçirilib. Mədəniyyət Nazirliyi və qalereyanın birgə təşkil etdiyi "Böyük qayıdış. Həsrətin sonu" adlı virtual sərgi torpaqlarımızın azad olunmasında Ordumuzun göstərdiyi qəhrəmanlığa həsr edilib.

Paytaxtdakı Xətai Sənət Mərkəzi də Mədəniyyət Nazirliyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və digər qurumlarla birgə maraqlı layihələrlə istedadlı uşaq və gəncləri bir araya gətirib. Zəfər Günü münasibətilə "Qələbə hünəri" adlı sərgi təşkil olunub. Eyni zamanda 27 sentyabr – Anım Günü münasibətilə "Misilsiz cəsarət" adlı rəsm sərgisi açılıb. Nizami Gəncəvinin 880 illiyinə həsr edilmiş akvarel vorkşopu, "Su və rəng ahəngi – 2021" mövzusunda akvarel sərgisi istedadlı yeni nəsillərin yaradıcılıq imkanlarının genişlənməsinə töhfə olub. İl ərzində mərkəzdə "Azərbaycanım" IV respublika uşaq rəsm festivalı çərçivəsində plenerlər də təşkil edilib.

**Savalan Fərəcov**

# İstedadlı gənclərin dövlət başçısının yubileyinə musiqi töhfəsi

Ulu öndər Heydər Əliyev 1996-cı il 22 iyun tarixində "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" fərman imzalayıb. Fərmana uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə incəsənət sahəsində xüsusi istedadı olan gənclərin yaradıcılıq fəaliyyətinə böyük dəstək göstərilir. Onlar Prezidentin xüsusi aylıq təqaüdünə layiq görülür, adları "Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılır. Həmçinin İlham Əliyevin 2013-cü il 2 iyul tarixli fərmanı ilə "Gənclər üçün Prezident mükafatı" təsis edilib. Mükafat hər il müxtəlif sahələrdə, o cümlədən incəsənət sahəsində xüsusi fərqlənən gənclərə verilir.

Dövlətimizin bu qayğısı sayəsində musiqi sahəsində uğurlar qazanmış gənclər Prezident İlham Əliyevin 60 illik yubileyinə töhfə olaraq konsert proqramı ilə çıxış etmək təşəbbüsü irəli sürmüşdülər. Dekabrın 24-də, ölkə başçısının 60 illik yubiley günündə, M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında konsert keçirildi.



Konserti izləyən tamaşaçılar arasında mədəniyyət naziri Anar Kərimov, nazir müavini Sevda Məmmədəliyeva, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi Cəlil Məlikov və musiqi məktəblərinin direktorları da var idi.

Zəngin repertuarlı konsertdə Gənclər üçün Prezident mükafatçısı Mustafa Mehmandarovun dirijorluğu ilə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Bakı Kamera Orkestri (baş dirijor və bədii rəhbər – Əməkdar artist Fuad İbrahimov), Bakı şəhər L. və M.Rostropoviçlər adına 21 nömrəli Musiqi məktəbinin nəfəsli alətlər ansamblı, Prezident təqaüdçüsü müğənni Atəş Qarayev (vokal), Prezident təqaüdçüləri Cəmil Sədizadə, Əbdüləli Hüseynli, Vüsalə Babayeva (hər üçü fortepiano), Zərrin Əliyeva (violin), Orxan Hüseynov (çello), Nicat Məmmədov (fleyta), Atabəy İsmayılov (tar), Nihad Orucov (vokal) çıxış etdilər.

Proqramda Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Müslüm Maqomayev, Aqşin Əlizadə, Qara Qarayev, Cahangir Cahangirov, Tofiq Quliyev və Qərb bəstəkarlarının əsərləri səsləndirildi.

A.Əlizadənin Azərbaycan xalqının qəhrəmanlıq tarixinin səhifələrini canlandıran, Vətənin füsunkar təbiətini vəsf edən odlu nəfəsli "Cəngi" əsəri ilə başlayan konsert proqramı zala sanki bir mübarizlik ruhu bəxş etdi. Bəstəkar Əlimərdan Əliyevin "Vətən marşı", C.Cahangirovun "Qarabağ", T.Quliyevin "Qaytağı"sı Azərbaycan bəstəkarlıq məktəbinin zənginliyini və gənc istedadların sənətə sevgisini nümayiş etdirdi.

İfalar tamaşaçılar tərəfindən alqışlarla qarşılandı. M.Maqomayevin "Azərbaycan" mahnısı ilə tamamlanan konsert həm də gənclərin Vətənə və sənətə sevgi mesajı idi.

# Qələbə ruhlu notların hakim olduğu il



əvvəli səh. 1-də

Bir il aradan sonra yenidən təşkil edilən Qəbələ Musiqi Festivalının proqramı da zəngin idi. Heydər Əliyev Fondunun dəstəyi və təşkilatçılığı, Təhsil və Mədəniyyət nazirlikləri və Bakı Musiqi Akademiyasının dəstəyi ilə 31 iyul – 4 avqust tarixində gerçəkləşən XII Qəbələ Beynəlxalq Musiqi Festivalı 5 gün ərzində musiqisevərlərə unudulmaz anlar bəxş etdi. Festivalda klassik musiqi ilə yanaşı, muğam, vokal, kamera musiqisi axşamları da təşkil olundu.

***

Sentyabrın 18-dən 24-dək gerçəkləşən Üzeyir Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalı da yaddaşlarda silinməz iz qoydu. Builki festival şanlı Qələbə ruhlu, zəfər sevincli notlarla zəngin idi. Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Azərbaycan Bəstəkarlar İttifaqının təşkilatçılığı ilə gerçəkləşən festival bir çox əlamətdar hadisələrlə yadda qaldı. Musiqi bayramının ilk konserti 18 sentyabrda əzəli torpağımız, Prezident İlham Əliyevin sərəncamı ilə mədəniyyət paytaxtımız elan olunmuş azad Şuşada, Üzeyir bəyin yurdunda keçirildi. Festival həm də azad Şuşada ilk Milli Musiqi Gününün (Üzeyir Musiqi Günü) qeyd edilməsi ilə əlamətdar oldu.

***

Mədəniyyət Nazirliyi və YARAT Müasir İncəsənət Mərkəzinin birgə təşkilatçılığı ilə oktyabr ayından "Mədəni yenilənmə" layihə həyata keçirildi. 15-17 dekabr tarixində layihənin növbəti mərhələsində Azərbaycanın Xalq artisti, bəstəkar və pedaqoq, Moskva Dövlət Konservatoriyasının professoru Fərəc Qarayev, musiqişünas, sənətşünaslıq doktoru Rauf Fərhadov və pianoçu, pedaqoq Samir Mirzəyev ilə görüşlər keçirildi. Müasir musiqinin təbliği və inkişafı baxımından bu görüşlər səmərəli və faydalı mühazirələrlə yadda qaldı.

***

"Nizami Gəncəvi İli"ni musiqi layihələri də zənginləşdirdi. Azərbaycan Bəstəkarlar İttifaqı (ABİ) müxtəlif layihələrlə "Nizami Gəncəvi İli"nə öz töhfəsini verdi, qəzəl-romans müsabiqəsi keçirdi. Müsabiqənin məqsədi Üzeyir Hacıbəylinin "Sənsiz" və "Sevgili canan" əsərləri ilə təməlini qoyduğu qəzəl-romans ənənəsinin davam və inkişaf etdirilməsi, Nizami yaradıcılığının müasir dövrdə vokal əsərlərdə musiqi və mətnlərin vəhdəti ilə ədəbi-bədii meyarlara cavab verən yeni qəzəl-romansların aşkar edilməsi idi.

Bundan əlavə, Mədəniyyət Nazirliyi və digər qurumların təşkilatçılığı ilə 15-26 noyabr tarixində Bakıda və Gəncədə gerçəkləşən Nizami Gəncəvi Beynəlxalq Festivalı çərçivəsində hər iki şəhərdə konsert proqramları reallaşdı.

***

Şanlı Qələbəmizin birinci ildönümü münasibətilə Heydər Əliyev Sarayında "Qarabağ Azərbaycandır!" adlı konsert keçirildi. Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu, Bəstəkarlar İttifaqı, Heydər Əliyev Sarayı və Azərbaycan Dövlət Akademik Filarmoniyasının birgə təşkilatçılığı ilə baştutan musiqi axşamında bəstəkarlarımızın Qarabağ Zəfərinə həsr olunan 18 simfonik əsəri səsləndirildi.

***

10-18 sentyabrda Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşan növbəti Bakı Caz Festivalı da bu musiqini sevənlər üçün bir bayram oldu. Pandemiya səbəbilə bir il aradan sonra keçirilən festival Azərbaycanın qəhrəman şəhidlərinin əziz xatirəsinə, eləcə də çətin zamanların ağırlığı altında əyilməyən caz musiqisinin ruhuna həsr olunmuşdu.

Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə 26 oktyabr – 6 noyabr tarixində gerçəkləşən "Caz səsləri" ("Jazzery Voices") silsilə tədbirləri isə həm Zəfərimizin ildönümünə, həm də Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) 100 illik yubileyinə həsr olunmuşdu.

***

Bundan əlavə, il ərzində tanınmış incəsənət ustalarımızın bir sıra ölkələrdə yaddaqalan konsertləri keçirildi. İstedadlı uşaq və gənclərimiz müxtəlif festival və müsabiqələrdə iştirak edərək uğur qazandılar. Həmçinin Azərbaycan musiqi mədəniyyətinin inkişafında xidmətləri olan sənətkarların yubileyləri münasibətilə tədbir, konsert, müsabiqə və festivallar keçirildi.



Bəli, 2021-ci ildə ölkəmizin musiqi, sənət mühitinə Qələbə ruhlu notlar hakim idi. İnanırıq bu yüksək sənət ruhu və yaradıcılıq şövqü növbəti ilin musiqi həyatında da davam edəcək...

**Lalə**

# Dövlətimizin qayğısı bəstəkarları yeni uğurlara ruhlandırır

## "İlham Əliyev və musiqi mədəniyyəti" kitabının təqdimatı keçirildi

Dekabrın 24-də Azərbaycan Bəstəkarlar İttifaqının (ABİ) Üzeyir Hacıbəyli adına konsert salonunda "İlham Əliyev və musiqi mədəniyyəti" kitabının təqdimatı keçirildi. Yeni nəşr Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin 60 illik yubileyi münasibətilə işıq üzü görüb.



Kitabın məsləhətçisi və ön sözün müəllifi Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, AMEA-nın müxbir üzvü Firəngiz Əlizadə, tərtibçisi sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızıdır.

Professor Firəngiz Əlizadə tədbiri açaraq bildirdi ki, kitab 60 illiyini qeyd etdiyimiz ölkə başçısının musiqi mədəniyyətimizə qayğı və diqqətini əks etdirən tarixi faktlardan bəhs edir: "Prezident İlham Əliyev Azərbaycan mədəniyyətinin hamisidir. Musiqimizin dünya miqyasında layiqincə təmsil edilməsi üçün hər zaman bəstəkar, ifaçı və musiqişünaslarımıza dəstək olur. Ümummilli liderimiz Heydər Əliyevdən miras qalan bir çox ənənələrlə yanaşı, məhz elm və incəsənət xadimlərinə Prezidentimizin, eləcə də ölkəmizin birinci xanımı Mehriban Əliyevanın qayğı və diqqəti sanki varislik timsalında davam etməkdədir".

İttifaqın sədri qeyd etdi ki, göstərilən qayğı bəstəkarlarımızı yeni yaradıcılıq uğurlarına ruhlandırır. Onlar böyük maraq və həvəslə musiqinin müxtəlif janrlarında əsərlər yazırlar. Bu əsərlərin içərisində Prezident İlham Əliyevin rəhbərliyi altında şanlı Ordumuzun qazandığı böyük Zəfərin tərənnümü də mühüm yer tutur. Zəfər tariximizə, bu şanlı tarixi yaradan Ali Baş Komandana yeni əsərlər həsr edilir. Noyabr ayında Heydər Əliyev Sarayında keçirilən "Zəfər çələngi" adlı konsertdə bəstəkarlarımızın tarixi Qələbəmizə həsr olunan əsərlərinin səslənməsi bunun əyani sübutudur.

Yeni işıq üzü görən kitabın ölkə başçısının yubileyinə kiçik töhfə olduğunu deyən Firəngiz Əlizadə nəşrin ərsəyə gəlməsində əməyi keçənlərə minnətdarlığını bildirdi. O, Azərbaycan bəstəkarları və musiqişünasları adından Prezident İlham Əliyevi 60 illik yubileyi münasibətilə təbrik etdi.

Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev çıxış edərək bildirdi ki, Azərbaycan mədəniyyətinin ən zəngin qollarından birini musiqi sənətimiz təşkil edir: "Musiqi mədəniyyətimiz böyük bir inkişaf yolu keçib. Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələri yaradıcılıqlarında professional musiqimizin inkişaf təmayüllərini əks etdiriblər. Bu mirası yaşatmalı və təbliğ etməliyik. Gərək müasir gənclik bəstəkarlarımızın əsərlərinə həssas yanaşsınlar. Daima mütaliə etsinlər, klassik irsə sevgi ruhunda yetişsinlər".

Elnur Əliyev təqdim olunan kitabın əhəmiyyətini vurğulayaraq qeyd etdi ki, dövlətimizin musiqiyə, incəsənətə diqqət və qayğısını əks etdirən, mədəni irsimizi yaşadan belə kitablar, həmçinin musiqi sənətimizin inkişafının göstəricisi, yeni musiqi əsərlərinin yaranmasına bir zəmindir.

Tədbirin bədii hissəsində Xalq artisti Firəngiz Əlizadənin Prezident İlham Əliyevə həsr olunan "Zəfər marşı", beynəlxalq müsabiqələr laureatı Pikə Axundovanın ballada, Əməkdar incəsənət xadimi Məmmədağa Umudovun marş, sənətşünaslıq üzrə fəlsəfə doktoru Lalə Cəfərovanın "Zəfər marşı", musiqi tərtibçisi Azad Zahidin "Qalib sərkərdəsi Azərbaycanın" adlı əsərlər səsləndirildi.

Tədbirin sonunda çıxış edən kitabın tərtibçisi Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızı bildirdi ki, 10 bölmədən ibarət kitab musiqişünaslar üçün dəyərli mənbə olacaq.

**Savalan Fərəcov**

# 2021-ci ildə kino yaddaşına yazılanlar










əvvəli səh. 1-də

Bununla yanaşı, 44 günlük Vətən müharibəsində misilsiz qəhrəmanlıq salnaməsi yaratmış Ordumuzun müxtəlif qoşun növlərinin müharibədəki şanlı döyüş yolunu, şücaətini və Zəfərimizi əks etdirən "Görünməyən qəhrəmanlar" ("İctimai TV" ilə birgə) adlı silsilə (5 ekran işi) filmlər istehsal edilərək tamaşaçılara təqdim olundu.

Bu il "Azərbaycanfilm"in çəkdiyi 5 hissəli "Köşk" bədii televiziya filmi ekranlara çıxdı. Bununla yanaşı, Mədəniyyət Nazirliyinin sifarişi ilə dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş, 12 bölümdən ibarət "Xosrov və Şirin" ("İctimai TV" ilə birgə) 12 bölümdən ibarət bədii teleserial istehsal olundu.

***

2021-ci ildə Mədəniyyət Nazirliyinin elan etdiyi "Böyük Qayıdış" qısametrajlı bədii, sənədli və animasiya film layihələri müsabiqəsində seçilmiş 2 sənədli film layihəsindən "Fulya" ("Dada Yapım" ilə birgə, Türkiyə) filmi istehsal edildi. Filmin Türkiyə və Azərbaycanda premyeraları keçirildi. Müsabiqənin ikinci qalibi "Müharibənin uşaqları" sənədli filminin isə istehsalı yekunlaşmaq üzrədir. Daha sonra layihənin qalibi olan "Quyu" qısametrajlı bədii filmi istehsal edilib və hazırda xarici distribusiyası həyata keçirilir.

İlin əvvəlindən etibarən Azərbaycan kinosuna həsr edilmiş "Bizim kino" ("İctimai TV"-nin dəstəyi ilə) 24 hissəli kinojurnal tamaşaçılara təqdim olunub.

***

Mədəniyyət Nazirliyinin sifarişi ilə "Salnaməfilm" studiyasında 2010-cu ildən ölkəmizin ərazi bütövlüyü uğurunda canını və qanını əsirgəməyən Vətən fədailəri – Milli Qəhrəmanlarımız haqqında 40-dan çox sənədli film çəkilib. Bu il isə 10 filmin çəkilişi başa çatdırılıb. "Hər şey yaxşı olacaq", "Torpağına baş əyərəm", "Oğuz elinin qəhrəmanı", "Oğlumun gündəliyi", "Poladın iziylə", "Artilleriyanın atası", "Bizim komandir", "Vətənin sipəri, mərdin təpəri", "Yarıda qalan uçuş" sənədli filmləri də Azərbaycanın qəhrəmanlıq tarixinə işıq salır.

2021-ci ildə Bakı Media Mərkəzi ilə "Azərbaycanfilm"in birgə istehsal etdiyi "Biz" sənədli filmi (ideya müəllifi, rejissoru Orman Əliyev) Vətən müharibəsinin birinci ildönümü ərəfəsində iki dəfə "İctimai TV"-də nümayiş olundu və tamaşaçılar tərəfindən böyük maraqla qarşılandı.

Bu il həmçinin Bakı Media Mərkəzi və "Salnaməfilm" studiyasının birgə istehsalı olan "Şuşa, sən azadsan!" sənədli filmi (rejissor Cavidan Şərifov) böyük maraqla qarşılandı. "O, Xarqo idi" ekran əsəri dövlət başçısının sərəncamına əsasən ötən il 100 illiyi qeyd olunan Azərbaycan xalqının cəsur övladı, əfsanəvi partizan Əhmədiyyə Cəbrayılovun ömür yolundan bəhs edir. "Aşıq Ələsgər – 200" filmi saz-söz ustadının yubileyinə həsr olunub. "Salnaməfilm" həmçinin bu il görkəmli neftçi soydaşımız, Rusiyanın Tümen vilayətində neft kəşf edənlərdən biri Fərman Salmanova həsr olunan "Mən neft tapdım. Salmanov" adlı sənədli filmin istehsalına başlayıb.

***

Bu il Mədəniyyət Nazirliyi tərəfindən təsis edilən Azərbaycan Film Komissiyasının ("Filming Azerbaijan") təqdimat mərasimi keçirildi. Komissiyanın yaradılmasında əsas məqsəd Azərbaycanı beynəlxalq kino istehsalçıları üçün geniş imkanları olan çəkiliş məkanı kimi təqdim etmək, beynəlxalq kino istehsalçıları ilə müştərək layihələr həyata keçirmək və ölkəmizə xaricdən maliyyə vəsaitinin cəlb edilməsini təmin etməkdir.

Mədəniyyət Nazirliyi tərəfindən Kino Agentliyinin yaradılması ilə bağlı işlərə də başlanılıb. Agentliyin yaradılmasında məqsədi kino sənayesində müasir tələblərə cavab verən şərait yaratmaq, xarici investorları kino sənayemizə cəlb etmək və bununla da Azərbaycan kinosunun inkişafına nail olmaqdır.

***

Pandemiya şəraitində həm onlayn, həm də ənənəvi formatda kinofestival və müsabiqələr də keçirildi.

Sentyabrın 3-dən 7-dək keçirilən IV "Animafilm" Beynəlxalq Animasiya Festivalı bu il "Əlillik" mövzusuna həsr olunmuşdu. Festivalın müsabiqə proqramına 40 ölkədən 134 film daxil edilmişdi.

19-23 noyabr tarixində 12-ci Bakı Beynəlxalq Qısa Filmlər Festivalı gerçəkləşdi. "CİNEMA" Gənc Kinematoqrafçılar Mərkəzinin təsis etdiyi festival bu il də Mədəniyyət Nazirliyinin təşkilati dəstəyi ilə keçirildi.

Sentyabr ayında ölkəmiz Daşkənd Beynəlxalq Film Festivalında xüsusi proqramla təmsil olundu. Festival çərçivəsində "Azərbaycan kinosu günləri" keçirildi. 8-12 noyabr tarixində İstanbulda keçirilən "Dədə Qorqud" ("Korkut Ata") Türk Dünyası Beynəlxalq Film Festivalında da Azərbaycan kinosu geniş şəkildə təmsil olundu.

Mədəniyyət Nazirliyinin dəstəyi ilə Bakı Media Mərkəzi və "Salnaməfilm" studiyası tərəfindən istehsal olunmuş "Sonuncu" sənədli filmi "OFF CİNEMA" 25-ci Beynəlxalq Sənədli Film Festivalında "Bürünc qəsr" mükafatına, azərbaycanlı rejissor Hilal Baydarovun "Durna çırağı" filmi 34-cü Tokio Beynəlxalq Film Festivalının "İncəsənətə töhfəyə görə" xüsusi mükafatına layiq görüldü.

Rejissor Rüfət Həsənovun "Daxildəki ada" filmi isə Amerika Kino Akademiyasının "Oskar" mükafatına Azərbaycanın namizədi olaraq təqdim edilib.

Beləliklə, ilin kino mənzərəsinə diqqət edəndə ürəkaçan rəngləri görə bilirik. Bu il ilk dəfə Milli Kino Günü açıq havada 4 filmin premyerası ilə də yaddaşlara yazıldı...

**L.Azəri**

№96 (1873)
29 dekabr 2021
www.medeniyyet.az

# Vətənsevər şair, unudulmaz insan

## Şahmar Əkbərzadənin 80 illiyi münasibətilə

Doğru deyiblər ki, həyat qəribəliklər, gözlənilməz hadisələrlə doludur. Bir mahnının sözlərində olduğu kimi – "Ey həyat, sən nə qəribəsən...". Yaşadığımız ömür yolunda nələrin baş verəcəyini kimsə proqnozlaşdıra bilməz.



Hələ məktəbli vaxtlarımda atam mütaliəyə marağımızı artırmaq üçün hər dəfə yay tətilində abunə yazıldığı qəzet və jurnalları bizə oxutdurar, özü də bizi dinləyərdi. Qəzet və jurnalları oxuyan zaman rastıma çıxan publisistik yazıları, vətənpərvər və düşündürücü şeirlərilə Şahmar Əkbərzadə imzası məni çox duyğulandırırdı. Sonralar onun yaradıcılığının sorağına düşdüm, "Ona yanıram ki...", "Yollar", "48 ölçülü qadın paltarı", "Utanım yerinə", "Laçın dağlarına məktub", "Nağara", "Mərkəzi poçtxana" kimi çox səmimi və vətənpərvər şeirlərini oxudum. Bu şeirlər içərisində ən çox da "48 ölçülü qadın paltarı" mənə çox təsir etmişdi:

*Geyimlər görəndə, ana, hər dönə*
*48 ölçüdə qalar gözlərim.*
*Cibim pullarımın qəbrinə dönər,*
*Titrəyər dizlərim, dolar gözlərim.*

*48 ölçüdə paltar geyərdin.*
*Kəsər şaxta məni, döyər qar məni.*
*48 ölçüyə çevrilib dərdin*
*Vitrindən boylanıb yandırar məni...*

*...Geyimlər-keçimlər gəlməz eyninə,*
*Biganə qalmısan, ana, hər şeyə.*
*Vətən torpağını geyib əyninə*
*Çoxdan qovuşmusan ölçüsüzlüyə.*

Bu şeirdə şair qəlbinin ana müqəddəsliyinə, ana ucalığına ehtiramı ilə yanaşı, ana itkisindən doğan ağır nisgilin də yüksək poetik ifadəsi oxucunu düşüncələrə qərq edir.

Şahmar Əkbərzadə hər gün şütüdüyümüz yollara da tam başqa məna, məzmun verir. "Yollar" şeirində yazır:

*Ayaqla torpağın öpüşməsindən*
*Doğulub böyüyür yollar həyatda.*
*Tapdana-tapdana min illər boyu,*
*Ömür qazanıbdır ayaqlar altda.*

*Gəlimli-gedimli yol nəsillərin,*
*Ölməz abidəsi, əmanətidir.*
*Tapdanmaq – insanın şərəfsizliyi,*
*Tapdanmaq – yolların ləyaqətidir.*

*İnsan qədəminə tamarzı qalmaq,*
*Yolların bağrına çəkilən dağdır.*
*Dünyada ayaqlar altda yaşamaq,*
*Bircə yollar üçün alçalmamaqdır.*

O vaxt bu şeirləri oxuyanda Şahmar müəllimi şəxsən görmək istəyirdim. Heç ağlıma da gəlməzdi ki, vaxt gələcək, mən "And" qəzetində işlədiyim müddətdə "Mədəniyyət" qəzetinin redaktor müavini, yazıçı, filosof Firuz Mustafa vasitəsilə Şahmar Əkbərzadə ilə yaxından tanış olacağam. Hətta yaradıcısı və ilk baş redaktoru olduğu bu qəzetdə onunla birgə çalışmaq, mənən zənginləşmək xoşbəxtliyi mənə də qismət olacaq...

"And" qəzetində çalışarkən kitab tərtibatı, dizaynı ilə də məşğul olurdum. Bir gün Firuz müəllim dedi ki, səni "Mədəniyyət" qəzetinin baş redaktoru, şair-publisist Şahmar Əkbərzadə ilə tanış etmək istəyirəm. Onun da əsərlərinin yığılıb çap olunmasına köməyin dəyər. Şahmar müəllimin adını və onunla tanış olacağımı eşidəndə məktəb illərindəki arzumun gerçəkləşəcəyinə çox sevindim.

Beləliklə, biz Şahmar müəllimlə tanış olub əməkdaşlığa başladıq. Onun necə səmimi, ətrafındakılara necə dəyər verən insan olduğunun bir daha şahidi oldum. O, bəzən şeirlərini oxuyaraq "nənə (özünə doğma bildiklərinə belə müraciət edərdi), gör bu şeir necədir, xoşuna gəlirmi" deyə soruşardı. Bu, onun qəlbinin böyüklüyündən, mənəvi zənginliyindən irəli gəlirdi. Özünün dilindən səsləndirdiyi şeirləri dinləmək isə adamın ruhunu oxşayırdı. Bir müddət sonra Şahmar müəllimin "nənə, işin mənim xoşuma gəlir, səni qəzetimizə işə götürəcəm" deməsi məni çox sevindirdi.

Təəssüflər olsun ki, şeirlərində də qeyd etdiyi kimi, torpaq həsrəti ona çox pis təsir edirdi. Qərib Təbrizi ürəyinə dərd edən şairin Qarabağsızlığa – Vətən torpaqlarının düşmən tapdağı altında qalmağına, Qarabağsız qarabağlı olmağa ürəyi heç dözmədi. 2000-ci ilin avqustunda Şahmar müəllim dünyasını dəyişdi... Onun qəfil vəfatı ailəsi, yaxınları, bir sözlə, onu tanıyan, nəcib insanlığını bilən və yaradıcılığını sevən hər kəs kimi məni də çox sarsıtdı...

2001-ci ildə "Mədəniyyət" qəzetində işə başladım. O vaxtdan 20 il keçir. Çox hadisələr baş verdi. Qəzetimiz bu gün də Şahmar müəllimin qoyub getdiyi ənənəyə sadiq fəaliyyətini davam etdirir...

2001-ci ildə "Vektor" Beynəlxalq Elmlər Akademiyası tərəfindən Şahmar Əkbərzadə adına beynəlxalq ədəbiyyat mükafatı təsis edildi. 2014-cü ildə "Şahmar Ədəbi Məclisi" təsis olundu. Və ən əsası, Şahmar müəllimin məzar daşında daşlaşmış, çox sevdiyi və artıq Zəfərimizin simvolu olan xarıbülbül Ali Baş Komandanın əmri və Ordumuzun igidliyi sayəsində yenidən cücərdi – "Xarıbülbül" musiqi festivalı yenidən böyük coşqu ilə azad Şuşada gerçəkləşdi, yağı düşmənin bağrını yardı. Mən ona yanıram ki, bütün bunları görmək vətənsevər şairimizə qismət olmadı...

Təəssüflər olsun ki, Şahmar müəllim, bu il sizsiz iki yubileyi keçiririk – ilin ilk ayında sizə əziz olan "Mədəniyyət"in 30 illiyini və ilin son ayının son gününə 3 gün qalmış 80 illik yubileyinizi... Kaş bu yubileyləri sizinlə və "Mədəniyyət" qəzetinin kollektivi ilə birgə Qarabağda – mədəniyyətimizin paytaxtı Şuşada keçirərdik... Təsəllini isə onda tapıram ki, Vətənin bütövlüyü ilə yəqin sizin ruhunuz da rahatlıq tapıb. Ruhunuz şad olsun, əziz və böyük İnsan...

**Səbinə Əlibalaqızı**

# Tarixi Zəfər həmrəyliyimizin ifadəsidir

## "Sədərək" Ticarət Mərkəzində şəhid ailələri ilə birlikdə Dünya Azərbaycanlılarının Həmrəylik Günü qeyd olunub

Azərbaycan xalqının birliyi 44 günlük Vətən müharibəsində özünün ən bariz ifadəsini tapdı. Xalqımız müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək, qəhrəman Ordumuza hər cür dəstək verərək, bir yumruq timsallı həmrəylik nümayiş etdirdi və bu dəmir yumruq düşmənin belini qırdı. Vətən uğrunda canından keçmiş igidlərin ailə üzvləri, şəhidlərin xalqımıza əmanət olan övladları ilə bir arada tariximizin əlamətdar günlərini qeyd etmək, bayramlaşmaq xoş və qürurverici hadisədir.





Bu fikirlər dekabrın 26-da "Sədərək" Ticarət Mərkəzində "Sədərək" firmasının, "Sabit Mühafizə Xidməti" MMC-nin əməkdaşlarının, Bakı şəhəri Müslüm Maqomayev adına 26 saylı onbirillik Musiqi məktəbinin, Elçin Qaranzadə adına 270 saylı tam orta məktəbin, 316, 112, 194 saylı tam orta məktəblərin, Azərbaycan Milli Konservatoriyası tərkibində İncəsənət Gimnaziyasının müəllim-şagird kollektivinin və şəhid ailələrinin iştirakı ilə 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə keçirilən tədbirdə səslənib.

Tədbir ticarət mərkəzinin ərazisində, "Sabit Mühafizə Xidməti"nin (SMX) inzibati binasının həyətində "SMX"-nin əməkdaşı, şəhid Nəcməddin Sarkayevin büstünün ziyarət olunması ilə başlayıb.

"Sədərək" firmasının mətbuat xidmətinin rəhbəri Kəmaləddin Qədim iştirakçıları salamlayaraq bildirib ki, Zəfər ruhu ilə yaşadığımız ilin sonunda Dünya Azərbaycanlılarının Həmrəylik Gününü qəhrəman Vətən övladlarının xatirəsini anaraq qeyd etməyimiz bu günə xüsusi bir anlam verir. Şəhidlərlə bizim Zəfər tariximizin yeni dövrü başlayır. Bundan sonra xalq və cəmiyyət olaraq borcumuz yeni nəsilləri onların həyat yolundan örnək alaraq vətənpərvər ruhda böyütməkdir. K.Qədim qeyd edib ki, "Sədərək" firması Vətən müharibəsi dövründə döyüşən ordu hisslərinə hərtərəfli dəstək və maddi yardım göstərdiyi kimi, müharibədən sonra şəhid ailələrinə, qazilərə də diqqət və qayğı göstərir. Firmanın təsisçisi Yusif Qədimbəylinin təşəbbüsü, "Sədərək" Xeyriyyə Cəmiyyətinin sədri Ənvər Qədimovun rəhbərliyi, ticarət mərkəzində çalışan sahibkarların yaxından iştirakı ilə bu istiqamətdə həyata keçirilən tədbirlər davamlı olacaq.

Sonra "SMX" MMC-nin əməkdaşı Elvin Zeynalov Vətən müharibəsinin 21 yaşlı şəhidi Nəcməddin Sarkayev haqqında tədbir iştirakçılarına məlumat verib. Bildirib ki, Vətən müharibəsində "Sabit Mühafizə Xidməti"nin 30 əməkdaşı iştirak edib, bir nəfər şəhid olub. Balakən rayonundan olan N.Sarkayev 2019-cu ildə ticarət mərkəzində mühafizə xidmətində fəaliyyətə başlayıb. 2020-ci ilin 27 sentyabrında Vətən müharibəsi başlayanda könüllü cəbhəyə yollanıb. Döyüşlərin birində yaralansa da, müalicəsi bitən kimi yenidən cəbhəyə qayıdıb. 6 noyabrda Suqovuşan istiqamətində həlak olub. Diqqətə çatdırılıb ki, N.Sarkayevin büstü "Sədərək" firmasının inzibati işçiləri, ticarət mərkəzində çalışan sahibkarlar, "Sədərək" Xeyriyyə Cəmiyyətinin üzvləri və "SMX" MMC-nin rəhbər heyəti tərəfindən ianə olunan vəsait hesabına hazırlanaraq ucaldılıb.

Tədbir iştirakçıları büstün önünə gül dəstələri qoyaraq şəhidin xatirəsini yad ediblər.

Sonra iştirakçılar "SMX"-nin inzibati binası yaxınlığında salınan "Şəhid bağı"na gəliblər. Məlumat verilib ki, "Sədərək" firması rəhbərliyinin dəstəyi ilə şəhidlərin xatirəsinə ehtiram olaraq salınan bağda indiyədək 760 ağac, gül kolları əkilib. Bağın sahəsinin genişləndirilərək Vətən müharibəsinin hər şəhidinin adına ağac əkilməsi nəzərdə tutulur. Burada həmçinin Birinci və İkinci Qarabağ müharibələri şəhidlərinin portretlərindən ibarət stendlər yaradılıb. Üç stenddə 96 şəhidin fotoları vurulub. 8 Noyabr – Zəfər Günü münasibətilə keçirilən bayram tədbirində bağın girişində "Şəhidlər bulağı" da açılıb.

Qeyd olunub ki, gələcəkdə bura ticarət mərkəzinə gələnlərin ziyarət edəcəyi, şəhidlərimizin əziz xatirəsinə həsr olunan tədbirlərin keçiriləcəyi gözəl bir parka çevriləcək. Ticarət mərkəzinin "Elit" kompleksində yaradılan "Zəfər guşəsi"nin də gələcəkdə muzey kimi "Şəhid bağı"nın ərazisində fəaliyyət göstərməsi nəzərdə tutulur.

Sonra tədbir iştirakçıları "Elit" kompleksinin 2-ci mərtəbəsində "Zəfər guşəsi" ilə tanış olublar. Bildirilib ki, "Sədərək" Xeyriyyə Cəmiyyəti tərəfindən yaradılan guşədə Zəfər salnaməsini əks etdirən, eləcə də "Sədərək" firması tərəfindən Vətən müharibəsi dövründə ordu hissələrinə yardımların göstərilməsi, qazilərimizin döyüş yolu ilə bağlı fotoları, müxtəlif eksponatlar yer alıb.

Tədbir ticarət mərkəzindəki "Şah" hoteldə ziyafət və musiqili proqramla davam edib. K.Qədim "Sədərək" firmasının rəhbərliyi adından hər kəsi Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik edib. Bildirib ki, ticarət mərkəzində şəhid ailələri ilə bir arada belə əlamətdar tədbirlərin keçirilməsi xoş ənənə halını alıb. Bu tədbirlərin hazırlanmasında həm təşəbbüskar olaraq, həm də təşkilati baxımdan "Sabit Mühafizə Xidməti" MMC-nin direktoru Şahlar Səfərovun xüsusi zəhməti var.

Sonra söz Ş.Səfərova verilib. Ş.Səfərov vurğulayıb ki, Zəfər ruhu ilə yaşadığımız bu il ərzində bir sıra yaddaqalan tədbirlər keçirmişik və şəhid ailələri ilə hər belə görüş bizə qürur verir. Bugünkü tədbirə təhsil müəssisələri, bu sahədə çalışan təşkilat təmsilçiləri, müəllim və şagirdlər də dəvət olunub. Məqsədimiz istedadlı uşaqların tariximizin şanlı səhifələrini yazmış qəhrəmanların ailə üzvləri, onların yaşıdları olan şəhid övladları ilə tanış olmasına, ünsiyyət qurmasına, vətənsevər nəsil kimi yetişməsinə vəsilə olmaqdır. "Sədərək" firmasının rəhbərliyinin dəstəyi ilə ticarət mərkəzi artıq belə əlamətdar tədbirlərin keçirildiyi bir məkana da çevrilir.

"Green Start Academy" tədris yaradıcılıq mərkəzinin rəhbəri Aysel Rəsulzadə dəvətə görə təşəkkürünü bildirərək, xalqımızın Həmrəylik Gününü şəhidləri anmaqla qeyd etməyin xüsusi anlam kəsb etdiyini vurğulayıb. "Green Start Academy"nin istedadlı uşaqları vətənpərvərlik ruhlu şeirlər söyləyiblər.

Bakı şəhər M.Maqomayev adına 26 saylı Musiqi məktəbinin müəllimi, bəstəkar Lalə Şirin də dəvətə görə minnətdarlığını ifadə edərək bu görüşə yetirmələri ilə birlikdə musiqi çələngi ilə gəldiklərini deyib. Məktəbin şagirdləri müəllimlərinin bəstələdiyi musiqiləri ifa ediblər.

Daha sonra şəhid övladlarının iştirakı ilə bayram tortu kəsilib, şəhid ailələrinə hədiyyələr, uşaqlara bayram sovqatları təqdim edilib.

Milli Qəhrəman Pənah Mirzəyevin bacısı Nazilə Mirzəyeva, şəhid Fuad Əsədovun anası Solmaz müəllimə, şəhid Arif Alekseyevin həyat yoldaşı Məlahət müəllimə, şəhid Nəcməddin Sarkayevin qardaşı Abdulla Sarkayev və digər çıxış edənlər diqqət və qayğıya, şəhidlərin xatirəsinə göstərilən ehtirama görə "Sədərək" firmasının rəhbərliyinə təşəkkürlərini bildiriblər.

# 2021-ci ildə qalanlar...

Bu il mədəniyyət, ədəbiyyat, incəsənət adına itkilərimiz də oldu. Ömür yolu 2021-də bitənləri xatırlayaq...

**4 yanvar** – Əməkdar incəsənət xadimi, bəstəkar Nailə Ağabala qız Mirməmmədli (23.5.1961 – 2021).

**12 yanvar** – Əməkdar artist, Akademik Opera və Balet Teatrının keçmiş solisti İsmayıl Ələkbərov (14.9.1939 – 2021).

**21 yanvar** – Əməkdar mədəniyyət işçisi, dublyaj rejissoru Arif İzzət oğlu Həbibi (1.6.1943 – 2021).

**10 fevral** – Əməkdar artist, aktyor Əlican Süleyman oğlu Əzizov (13.2.1952 – 2021).

**20 fevral** – Əməkdar rəssam, Şəki Dövlət Dram Teatrının baş rəssamı işləmiş Qüdrət Hacıbəy oğlu Məmmədov (12.12.1936 – 2021).

**22 fevral** – Xalq artisti, tanınmış müğənni Yalçın İmran oğlu Rzazadə (15.12.1939 – 2021).

**7 mart** – Əməkdar mədəniyyət işçisi, Bakı Dövlət Sirkinin direktoru Vaqif Mahmud oğlu Bağırzadə (24.6.1954 – 2021).

**9 mart** – rəssam, Dövlət Rəssamlıq Akademiyasının dosenti Salar Məmmədov (1940-2021).

**10 mart** – Xalq rəssamı Mirnadir Mirəli oğlu Zeynalov (12.11.1942 – 2021).

**16 mart** – yazıçı-publisist, filologiya elmləri doktoru Teymur Əkbər oğlu Əhmədov (25.12.1930 – 2021).

**21 mart** – Xalq artisti, aktyor Ramiz Soltan oğlu Məmmədov (26.9.1951 – 2021).

**5 aprel** – Xalq artisti, gitara ifaçısı Rafiq (Rəmiş) Hüseyn oğlu Hüseynov (14.11.1944 – 2021).

**5 aprel** – aktyor Fikrət Əli oğlu Məmmədov (1.1.1956 – 2021).

**6 aprel** – Əməkdar mədəniyyət işçisi, teatr xadimi Həsən Nəsib oğlu Həsənov (7.7.1950 – 2021).

**6 aprel** – Əməkdar incəsənət xadimi, tarzən, Oqtay Süleyman oğlu Quliyev (22.9.1938 – 2021).

**8 aprel** – Əməkdar incəsənət xadimi, televiziya rejissoru Məhərrəm Əlisəftər oğlu Bədirzadə (13.1.1945 – 2021).

**12 aprel** – Əməkdar mədəniyyət işçisi, "İrs" folklor ansamblının bədii rəhbəri olmuş Sidqi Mustafayev (24.2.1941 – 2021).

**14 aprel** – filologiya elmləri doktoru, mədəniyyət xadimi Adilxan Hüseynəli oğlu Bayramov (19.2.1949 – 2021).

**15 aprel** – Əməkdar mədəniyyət işçisi, tarixçi, arxeoloq Kamil Fərhad oğlu İbrahimov (6.8.1962 – 2021).

**16 aprel** – Xalq artisti, görkəmli kinorejissor, ssenarist, pedaqoq, Dövlət mükafatı laureatı Eldar Tofiq oğlu Quliyev (18.1.1941 – 2021).

**21 aprel** – Gənc Tamaşaçılar Teatrının aktyoru Ələsgər Novruzəli oğlu Qurbanəliyev (23.3.1948 – 2021).

**26 aprel** – Əməkdar artist, müğənni Baloğlan Xanoğlan oğlu Əşrəfov (8.10.1951 – 2021).

**5 may** – Xalq şairi, Yazıçılar Birliyinin birinci katibi, Dövlət mükafatı laureatı Fikrət Göyüş oğlu Qoca (25.8.1935 – 2021).

**7 may** – Xalq artisti, aktyor Arif Əli oğlu Quliyev (16.5.1950 – 2021).

**7 may** – Xalq şairi Musa Səfiməmməd oğlu Yaqub (10.5.1937 – 2021).

**10 may** – tanınmış rəssam Eldar Zeynalov (1961-2021).

**20 may** – Əməkdar artist, rəqqas Qorxmaz Ağababaoğlu Qurbanov (18.7.1940 –2021).

**21 may** – Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Dövlət mükafatları laureatı, Tahir Teymur oğlu Salahov (28.11.1928 – 2021).

**25 may** – Əməkdar müəllim, G.Şaroyev adına 35 saylı Musiqi məktəbinin direktoru Yusif Boran oğlu Vəliyev (15.8.1952 – 2021).

**28 may** – Əməkdar artist, müğənni Zöhrə Abdulla qızı Abdullayeva (16.12.1952 – 2021).

**9 iyun** – Xalq artisti, aktyor, kinorejissor Ramiz Hacıağa oğlu Əzizbəyli (20.7.1948 – 2021).

**12 iyun** – akademik, tarixi mədəni irsimizlə bağlı kitabların müəllifi Çingiz Oveys oğlu Qacar (6.6.1929 – 2021).

**22 iyun** – kinorejissor, rəssam Çingiz Rəsulzadə (20.2.1972 – 2021).

**4 iyul** – arxeoloq, tarix elmləri doktoru Rauf Maqomedoviç Munçayev (23.9.1928 – 2021).

**18 iyul** – tanınmış publisist, uzun illər "Mədəniyyət" qəzetinin yazarı olmuş Tahir Heydər oğlu Abbaslı (25.9.1948 – 2021).

**20 iyul** – Əməkdar mədəniyyət işçisi, Zemfira Baba qızı Babayeva (17.11.1954 – 2021).

**24 iyul** – Xalq artisti, müğənni Səməd Səmədov (17.9.1946 – 2021).

**13 avqust** – Xalq artisti, aktyor Vaqif Məzahir oğlu Əliyev (31.7.1940 – 2021).

**31 avqust** – Azərbaycanın Əməkdar artisti, Rusiyanın Xalq artisti Tamilla Mirsüca qızı Ağamirova (21.8.1928 – 2021).

**31 avqust** – şair, ssenarist Əhməd Oğuz (Əhməd Musa oğlu Kərimov; 13.11.1961 – 2021).

**3 sentyabr** – Xalq rəssamı, heykəltəraş Arif Şamil oğlu Qazıyev (2.1.1937 – 2021).

**4 sentyabr** – Əməkdar mədəniyyət işçisi, Nairə Hafiz qızı Sadıxova (21.7.1964 – 2021).

**14 sentyabr** – Əməkdar artist, müğənni, bəstəkar Yaqub Zurufçu (8.4.1956 – 2021).

**15 sentyabr** – Əməkdar artist, arfa ifaçısı Çiçək Məmmədhüseyn qızı Rzayeva (13.6.1944 – 2021).

**16 sentyabr** – Əməkdar mədəniyyət işçisi, dirijor Nizami Tahir oğlu Məmmədov (21.9.1947 – 2021).

**26 sentyabr** – Əməkdar elm xadimi, tanınmış filosof alim Zümrüd Əliqulu qızı Quluzadə (17.3.1932 – 2021).

**26 sentyabr** – Əməkdar incəsənət xadimi, bəstəkar Adil Musa oğlu Bəbirov (15.2.1934 – 2021).

**26 sentyabr** – Xalq artisti, müğənni, "Qaya" kvartetinin bədii rəhbəri olmuş Teymur İbrahim oğlu Mirzəyev (1936–2021).

**30 sentyabr** – Azərbaycan və Özbəkistanın Əməkdar artisti Kövkəb Əliyeva (1935–2021).

**30 sentyabr** – tanınmış müğənni Səyyad Əşrəf oğlu Əlizadə (6.8.1958 – 2021).

**5 oktyabr** – Xalq artisti, Gəncə Dövlət Dram Teatrının rejissoru Vaqif Abdulla oğlu Şərifov (12.8.1943 – 2021).

**7 oktyabr** – Əməkdar rəssam, heykəltəraş Namiq Əbdülxalıq oğlu Dadaşov (27.11.1945 – 2021).

**8 oktyabr** – Xalq artisti, teatr rejissoru Ağakişi Şəmməd oğlu Kazımov (28.6.1935 – 2021).

**22 oktyabr** – Xalq artisti, xanəndə, opera müğənisi Canəli Xanəli oğlu Əkbərov (10.3.1940 – 2021).

**8 noyabr** – tanınmış rəssam Abbas Ələsgər oğlu Kazımov (1.1.1956 – 2021).

**9 noyabr** – Əməkdar artist, tarzən, pedaqoq Firudin Yusif oğlu Ələkbərov (20.6.1921 – 2021).

**13 noyabr** – Əməkdar memar, Dövlət mükafatı laureatı Rasim Həsən oğlu Əliyev (16.7.1934 – 2021).

**16 noyabr** – Əməkdar artist, tanınmış aktyor Məcnun Salam oğlu Hacıbəyov (5.10.1935 – 2021).

**16 noyabr** – tanınmış heykəltəraş, Ukraynanın Xalq rəssamı Seyfəddin Əli oğlu Qurbanov (19.10.1962 – 2021).

**22 noyabr** – Əməkdar incəsənət xadimi, bəstəkar Sultanova Asya Baxış qızı (16.10.1923 – 2021).

**2 dekabr** – Əməkdar mədəniyyət işçisi Gülnar Ələkbər qızı Əliyeva (29.8.1945 – 2021).

**6 dekabr** – tarix üzrə elmlər doktoru Aydın Hüseynağa oğlu Balayev (19.11.1956 – 2021).

**7 dekabr** – dilçi alim, filologiya elmləri doktoru Qara İbrahim oğlu Məşədiyev (15.5.1939 – 2021).

**8 dekabr** – tarixçi, AMEA-nın müxbir üzvü Fəridə Cəfər qızı Məmmədova (8.8.1936 – 2021).

**20 dekabr** – Əməkdar artist, Dövlət Gənc Tamaşaçılar Teatrının aktyoru Elşən Şıxəli oğlu Şirəliyev (2.10.1962 – 2021).

**25 dekabr** – İrəvan Dövlət Azərbaycan Dram Teatrının aktyoru Məmməd Eldəniz oğlu Zeynalov (1978-2021).

**26 dekabr** – yazıçı-publisist, Əməkdar jurnalist Əhməd Məmməd oğlu İsayev (30.8.1941 – 2021).

**27 dekabr** – Əməkdar artist, aktyor, rejissor Zilli Yunus oğlu Namazov (15.10.1951-2021).

**Xatırladı: V.Orxan**

# Cəsarətin ünvanı



İctimai təfəkkürün formalaşmasında mühüm rol oynayan kinonun məzmunu dərin, aktyor ifası peşəkar olduqda sənət həyatın inikasına çevrilir, qəbul edilir, sevilir, baxılır. Sənətdə seçilmək, cəmiyyətin sevimlisi olmaq bu mənada heç də asan deyil. Bəzi hallarda milyonların sevgisi ilə əhatələnmək doğmalarının sevgisindən məhrum qalmaq hesabına başa gəlir. Bu isə bir ömrə yansıyan kədər, nisgil deməkdir.

Azərbaycan kinosunun sevilən simalarından olan Xalq artisti, istedadlı teatr, kino aktrisası Səfurə İbrahimova da sevdiyi sənətin dolanbac cığırlarında zəhməti, istedadı hesabına qazandığı uğuru köksünə sıxmağa, sevincini, nailiyyətlərini bir gözü nəmli, bir gözü gülərək yaşamağa məcbur olub. Yaxınlarının, doğmalarının (əsasən də anasının) tənələrindən çəkinməyib, həyatın zərbələrinə xoş niyyəti, zəhməti, istedadı ilə cavab verib, qalib gəlib. Məsləyini həyatının nicatına çevirən incə ruhlu xanım iradəsinə, mətinliyinə arxalanaraq arzusunu gerçəkləşdirib, cəsarətinin ünvanı olan sənətini milyonlara çatdırıb, şəxsiyyətini sənəti fonunda, sənətini şəxsiyyəti fonunda sevdirib.

### Sənətə doğru

Səfurə İbrahimova 1938-ci il dekabrın 27-də Bakıda anadan olub. Orta məktəbi (14 saylı) bitirdikdən sonra (1955), bir müddət “Stalinneft”də, həmçinin 44 saylı orta məktəbdə işləyib, dram dərnəyinə gedib. Mirzəağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun (indiki ADMİU) Dram və kino aktyorluğu fakültəsində təhsil alıb (1960-1964), professor Rza Təhmasibin kursunu bitirib.

Tələbəliyinin ilk günlərindən sənət müəllimlərinin diqqətini cəlb edib, birinci kursdan Akademik Milli Dram Teatrına dəvət alıb. İlk dəfə İslam Səfərlinin “Ana ürəyi” tamaşasında Xatirə rolunu oynayıb. Teatrda xalq artistləri Hökümə Qurbanova, Sofa Bəsirzadə, Leyla Bədirbəyli və digər səhnə ustaları ilə tərəf-müqabil olub. Görkəmli sənətkarlarla çiyin-çiyinə çalışması aktrisanın sənət təcrübəsini daha da artırıb. İnstitutu bitirdikdən sonra teatrda ştata götürülüb, xarici və yerli dramaturqların əsərlərinin tamaşalarında müxtəlif xarakterli rolları ustalıqla yaradıb.

Səfurə xanım xatirələrində kinoya gəlişi haqqında belə deyib: “Orta məktəbdə oxuyarkən məni kinoya dəvət ediblər. Yadımdadır, o vaxt sinfimizə gəlib kinoya çəkmək üçün qız uşağı axtardıqlarını dedilər. Gələnlərdən bir nəfər qadın sinfimizə göz gəzdirəndən sonra müəllimimdən mənim üçün icazə istədi... Beləliklə, ilk dəfə rejissor Zeynəb Kazımovanın “Həyat öyrədir” filmində Leyla roluna çəkildim. Film 1961-ci ildə ekranlara çıxdı”.





Sözügedən filmdəki uğuruna, həmçinin teatrda olan peşəkarlığına görə görkəmli kinorejissor Əlisəttar Atakişiyev Səfurə xanımı “Bizim küçə” (1961) filmində Asya roluna dəvət edir. Kiçikplanlı rol çərçivəsində obrazın və tərəf-müqabillərinin hadisələrə müdaxiləsini təmin, mövzunun mahiyyətini təlqin edən personaj hadisələrin axıcılığına təsir edir, aqressiv xarakteri, ətrafında yaratdığı gərginliklərin fonunda digər prototiplərin müsbət xarakterini qabardır. Bu isə yaradıcılıq texnikasının dəqiq mizanlanmış üslubu, sənət biliciliyinin göstəricisidir.

### İstedad, yoxsa şans...

Səfurə xanımın bəxti onda gətirir ki, kinoya gəldiyi ilk vaxtlardan etibarən görkəmli kinorejissorların (Arif Babayev, Hüseyn Seyidzadə, Tofiq Tağızadə, Həsən Seyidbəyli, Rasim Ocaqov və s.) filmlərinə dəvət alır. Aktrisaya növbəti yaradıcılıq uğurunu “Arşın mal alan” (1965) kinokomediyasında oynadığı qulluqçu Telli obrazı gətirir.

1945-ci ilin məşhur filmindən sonra Üzeyir Hacıbəylinin ölməz əsərinin yenidən ekranlaşdırılması böyük cəsarət tələb etsə də, görkəmli kinorejissor Tofiq Tağızadə fərqli quruluşda və aktyorların peşəkar təqdimatında musiqili komediyanı bir daha sevdirməyə, əsərə uğurlu ekran taleyi bəxş etməyə nail olur.

Sultan bəyin ailəsində qulluqçu işləyən Telli özündən çox ailədəki qızların (Gülçöhrə, Asya) xoşbəxtliyini arzulayır. Personajın nikbin cəhətləri (janrın təbiətinə, əsərin məzmununa uyğun olan), xoş rəftarı ictimai bərabərsizliyi yox (rəiyyət-mülkədar münasibətini), hər bir sinfə mənsub olan insanların yalnız qarşılıqlı anlaşması, bir-birinə dəstəyi sayəsində xoşbəxt yaşaya biləcəyi fikrini aşılayır. Rolun baməzə, koloritli təqdimatı əsərin məzmununun bilavasitə (komik) çatdırılmasına təsir göstərir, Tellinin səciyyəvi cəhətləri, danışıq və jestləri digər personajların (Soltan bəy, Vəli) fərdi cəhətlərini də tanımağımıza imkan yaradır (Bu fikri aktrisanın “Dərviş Parisi partladır” filmində oynadığı qulluqçu Gülpəri roluna da şamil etmək olar).

Yeni “Arşın mal alan” ekranlara çıxdıqdan bir il sonra yaradıcı qrupun üzvlərindən rejissor Tofiq Tağızadə, aktrisalar Səfurə İbrahimova, Leyla Şıxlinskaya sovet kinematoqrafçıları nümayəndə heyətinin tərkibində Yaxın Şərq ölkələrində (İordaniya, İraq, Suriya) sovet filmləri həftəsində iştirak edirlər. Kino tədqiqatçısı Aydın Kazımzadənin sözügedən filmlə bağlı məqaləsinə istinad edək: “Tofiq Tağızadə danışırdı ki, bizim filmimiz dərhal müvəffəqiyyət qazandı və hər yerdə – Əmmanda, Bağdadda, Dəməşqdə kinoteatrların sahibləri bizi dilə tuturdular ki, bayram proqramını uzadaq...”.

Bundan sonra aktrisa “Yun şal” bədii-televiziya filmində Südabə, “O qızı tapın” detektiv filmində





Xalidə, “Tütək səsi”ndə İsmət, “Əlavə iz”də Leyla, “İmtahan” kinodramında Dilarə, “Təxribat”da Aida, “Qətl günü” tarixi dramında Sədi Əfəndinin arvadı, “Hökm” döyüş-macəra filmində Suğra və digər rolları ustalıqla ifa edib. Ümumiyyətlə, 1960-70-ci illər Səfurə xanımın kino yaradıcılığında uğurlu olur. Həmin illərdə aktrisa bir-birinin ardınca məzmunlu ekran əsərlərində rol alır.

Görkəmli kinorejissor Həsən Seyidbəylinin “Bizim Cəbiş müəllim” (1969) filmində Nəcəfovun arvadı obrazı Səfurə xanımın tezliklə kinoda baş və ikinci planlı rollara dəvət almasına imkan yaradır. Filmdə İkinci Dünya müharibəsi zamanı neft Bakısında yaşayan ailənin psixoloji, mənəvi durumu göstərilir, həmçinin ön cəbhədən həyat yoldaşının qara xəbərini alan obrazın təfsirində Azərbaycan qadınının ümumiləşdirilmiş obrazı, həmin illərdəki çətin güzəranı göz önündə canlanır. Amplua çərçivəsinin yoxluğunu kiçikplanlı rollarında belə təsdiqləyən aktrisa rejissor Vladimir Qorikkerin ekranlaşdırdığı “Sevil” (1970) film-operasında Dilbər rolunu böyük şövq və məharətlə oynayır. Kino tədqiqatçısı Aydın Kazımzadə aktrisanın sözügedən filmə dəvət almasını belə şərh edir: “Rejissor Qorikker Səfurə xanımın teatrda oynadığı bir neçə rola baxandan sonra qəti şəkildə demişdi: “Ya Səfurə, ya da...Yalnız Səfurə”.

### Rolları qədər sevilən şəxsiyyət

Sənəti daim yüksək səviyyədə təqdim edən aktrisa Akademik Milli Dram Teatrının səhnəsində Cəfər Cabbarlının “Sevil” əsəri əsasında hazırlanan eyniadlı tamaşada Sevil obrazını uzun müddət böyük sevgi və peşəkarlıqla yaradıb.

Tamaşaçı yaddaşında mövhumatçılığa qarşı hayqıran aktrisa kimi yaddaşlarda iz salan Səfurə xanım “Sevil” film-operasında tamamilə fərqli Dilbər surətini oynayır, ikiqat məharət, bacarıq sərf etməklə obrazın hiyləgər, meşşan xüsusiyyətlərini orijinal, rəngarəng boyalarla göstərir. Mürəkkəb xarakterli rolları böyük məharətlə canlandıran aktrisa bir-birindən fərqli personajları rolların həyat mövqeyinə, psixologiyasına uyğun tərzdə, realist üslubda yaratmaqla bir sənətkar, bir vətəndaş kimi mənəvi üstünlüyün, gözəlliyin qələbəsini göstərir, intellektual cəmiyyətin formalaşmasında sağlam zəkanın qalibiyyətini vurğulayır.

“Qatır Məmməd” filmində köməkçi obrazlardan olan Həlimə dövrünün ədalətsizliyinə qarşı çıxır, atasının qisasını almaq üçün Qatır Məmmədin dəstəsinə qoşulur. Səfurə İbrahimovanın bu obrazdakı oyununda, xüsusilə Həlimənin monoloqunda haqsızlıqlara qarşı kövrək etiraz duyuruq. Səlis diksiya, dolğun hissiyyat və yaşarı təqdimatda məzlumların bəlalar burulğanındakı faciəsinə acıyırıq. Beləliklə də, kiçikplanlı rol ziddiyyətlərin açılmasına, filmin ideya məzmunun çatdırılmasına bilavasitə kömək və xidmət edir.

“Alma almaya bənzər” musiqili kinokomediyadakı Mədinə obrazı isə baməzə xarakteri çərçivəsində vəziyyət komediyasını yaradan personajdır. Obrazın təfsirində bəzi personajların (Qurban, Həsən) daxili məni, həyat mövqeyi bəlli olur.

“Qayınana” musiqili komediyasındakı Sədaqət obrazı da hadisələrin axıcılığına rəvac verir. Aktrisa forma və məzmun etibarilə müxtəlif janrlı filmlərdə oynadığı rolları vasitəsilə ayrı-ayrı dövrlərin hadisələrinə ustalıqla müdaxilə edir, münasibət bildirir, sənətini yüksək səviyyədə təqdim etməklə tamaşaçılara mənəvi qida, estetik zövq verir. Hər bir obrazı ilə tamaşaçıların qəlbində dərin iz salan aktrisa sənətdə göstərdiyi xidmətlərə görə 1974-cü ildə “Əməkdar artist”, 2002-ci ildə “Xalq artisti” fəxri adlarına, 1984-cü ildə Dövlət mükafatına layiq görülür.

Sənət və həyat mübarizəsində özünəməxsus dəst-xətti ilə fərqliliyini sübut edən aktrisa 2005-ci ildən etibarən sənətdən uzaqlaşsa da, böyük həyat eşqi ilə sarıldığı dünyadan (21.12.2020) köçsə də, şəxsiyyəti qədər sevilən rollarına, rolları qədər sevilən şəxsiyyətinə görə milyonların qəlbində xatırlanacaq, unudulmayacaq...

**Şəhla Əmirli**
**kinoşünas**

## Dövlət Film Fondunda 20 şəxsi arxiv fondu yaradılıb

2021-ci il ərzində Azərbaycan Dövlət Film Fonduna şəxsi arxivlərdən çox sayda müxtəlif afişa və plakatlar, görkəmli kinematoqrafçılara məxsus şəxsi əşyalar, 1000-dən çox fotosənədlər daxil olub.

Fonddan bildirilib ki, kino lentlərində qorunan “Ögey ana”, “Dəli Kür”, “Dədə Qorqud”, “Günlərin bir günü”, “Babək”, “Nizami” və s. bədii, “Aşıq Ələsgər” (Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamına uyğun olaraq), “Mikayıl Abdullayev”, “Səttar Bəhlulzadə”, “Əzim Əzimzadə”, “Mirzə Kazım bəy”, “Fərhad. Portret cizgiləri” və s. sənədli filmlər bərpa olunub.

Ümumilikdə 20 fond olmaqla, Xalq artistləri Rasim Ocaqov, Eldar Quliyev, Leyla Bədirbəyli, Şahmar Ələkbərov, Süleyman Ələsgərov, Hökümə Qurbanova, Ənvər Həsənov, Əməkdar incəsənət xadimləri Rasim İsmayılov, Şərif Şərifov, Rüfət Şabanov, Vladimir Konyagin, qocaman rejissor Niyazi Bədəlov, Əməkdar mədəniyyət işçisi Yusif Şeyxov və digər kinematoqrafçıların şəxsi arxiv fondları yaradılıb.



Bundan başqa, ötən əsrdə kino istehsalında istifadə olunmuş 18 ədəd nadir kino çəkilişi avadanlığı bərpa olunub.

2021-ci ildə Dövlət Film Fonduna bir sıra dövlət və özəl studiyalarda istehsal olunmuş (“Olimpiya”, “Köşk” (çoxseriyalı), “Quyu”, “Levonun son payızı” bədii, “Unudulmuş dəhliz”, “Bizim komandir”, “Qapı”, “Yarıda qalan uçuş”, “Biz”, “27 sentyabr. Qələbənin ilk günü”, “Görünməyən qəhrəmanlar”, “Hərbi Hava Qüvvələri”, “Böyük əmr”, “Fulya” sənədli, “Tıq-tıqla möcüzələr axtarışında. 2-ci bölüm: Qobustan” animasiya və s.) filmlər daxil edilib.

## Xatirə təqvimi — 29 dekabr – 2 yanvar

### Azərbaycan

**29 dekabr 1921** – Xalq yazıçısı, filologiya elmləri doktoru, professor Əzizə Məmməd qızı Cəfərzadə (1921 – 4.9.2003) Bakıda anadan olub. S.Ə.Şirvani, A.Səhhət, Xətai və başqa görkəmli şəxsiyyətlər haqqında tarixi romanların müəllifidir. “Azərbaycanın aşıq və şair qadınları” (iki cilddə) və s. kitabları tərtib edib.

**29 dekabr 1924** – Əməkdar artist Sadıq Ömər oğlu Hüseynov (1924-2003) Kürdəmir rayonunun Atakişili kəndində doğulub. Akademik Dram Teatrında çalışıb. “Axırıncı aşırım”, “Mən ki gözəl deyildim” və s. filmlərdə çəkilib. Radioda uşaq verilişlərində Savalan baba obrazı ilə yadda qalıb.

**29 dekabr 1929** – Tarix elmləri doktoru, akademik Püstəxanım Əzizağa qızı Əzizbəyova (1929 – 8.1.1998) anadan olub. Azərbaycan EA Tarix İnstitutunun direktoru olub.

**29 dekabr 1929** – Xalq rəssamı, Dövlət mükafatı laureatı Kamil Nəcəf oğlu Nəcəfzadə (1929 – 29.9.2011) Lənkəranda doğulub. “Bizim küçə”, “Ulduz”, “Mən ki gözəl deyildim”, “Ad günü”, “Qanlı zəmi” və s. filmlərin quruluşçu rəssamı olub. Milli Dram və Rus Dram teatrlarında tamaşaların bədii tərtibatını verib.

**29 dekabr 1944** – Əməkdar incəsənət xadimi, yazıçı-publisist Sara Oğuz (Sara Mollaçı qızı Nəzirova; 1944 - 22.6.2014) Oğuz rayonunda anadan olub. Pyesləri tamaşaya qoyulub, sənədli filmlərin ssenari müəllifidir.

**29 dekabr 1946** – Tanınmış şair Nüsrət Yusif oğlu Kəsəmənli (1946 – 17.10.2003) Qazax rayonunun Kalininkənd kəndində anadan olub. Şeirlərinə mahnılar bəstələnib, sənədli filmlərin ssenari müəllifidir.

**29 dekabr 1951** – Əməkdar artist Elşad Allahverdi oğlu Zeynalov (1951-2007) Ağsu rayonunda doğulub. Lənkəran Dövlət Dram Teatrının aktyoru, direktoru (2000-2007) olub.

**30 dekabr 1926** – Xalq artisti, tanınmış xanəndə Əbülfət Əsəd oğlu Əliyev (1926 – 27.12.1990) Şuşada doğulub. 1945-ci ildən Azərbaycan Dövlət Filarmoniyasının solisti olub. Opera tamaşalarında (“Leyli və Məcnun”, “Aşıq Qərib”, “Şah İsmayıl” və s.) əsas rolları ifa edib.

**30 dekabr 1937** – Xalq artisti, müğənni Rauf Yusif oğlu Babayev (1937 – 27.3.2020) anadan olub. 1960-70-ci illərdə “Qaya” kvartetinin solistlərindən biri kimi məşhurlaşıb. 2001-ci ildən “Qaya” Dövlət Ansamblının bədii rəhbəri olub.

**31 dekabr 1903** – Əməkdar incəsənət xadimi, Azərbaycan kinosunun ilk rejissorlarından olan Mikayıl Yusif oğlu Mikayılov (1903-1986) Bakıda doğulub. “Lətif” (1930), “İsmət” (1934) və s. bədii filmlərə quruluş verib, sənədli filmlər çəkib.

**31 dekabr 1907** – Yazıçı Eynulla Xankişi oğlu Ağayev (1907 – 5.11.1978) Bakının Ramana kəndində anadan olub. Əsərləri: “Şişpapaq”, “Dağlarda şimşək çaxır”, “Baba nağılı”, “Teleqram” və s.

**31 dekabr 1910** – Yazıçı-dramaturq Əbil Yusif (Əbil Məmməd oğlu Yusifov; 1910 – 29.3.1984) Ordubadda anadan olub. Əsərləri: “Babək”, “Odlar içində”, “Səngərdən gələn səslər” və s.

**31 dekabr 1920** – Əməkdar mədəniyyət işçisi, şair Zeynal Əliabbas oğlu Cabbarzadə (1920 – 20.1.1977) Bakıda doğulub. Uşaq-gənclər üçün kitabların müəllifidir: “Çinar”, “Arzular”, “Dostum, gəl sözə bax”, “Uca dağ başında”, “Bizim dünya” və s.

**31 dekabr 1924** – Folklorşünas, filologiya elmləri doktoru Vaqif Əli oğlu Vəliyev (1924-1998) Qazax rayonunun Pirili kəndində anadan olub.

**31 dekabr 1927** – Əməkdar artist, opera müğənnisi Firudin Mehdi oğlu Mehdiyev (1927 – 1.2.2006) anadan olub. 1957-ci ildən Opera və Balet Teatrında çalışıb. Filmlərdə (“Böyük dayaq”, “Gecə qatarında qətl” və s.) çəkilib.

**31 dekabr 1927** – Xalq rəssamı Rasim Hənifə oğlu Babayev (1927 – 24.4.2007) Bakıda anadan olub. “Daşkəsən”, “Sumqayıt”, “Qobustan”, “Xınalıq” linoqravüra silsilələrinin, kitab qrafikası üzrə əsərlərin müəllifidir.

**31 dekabr 1928** – Tanınmış rejissor Rauf Mirmahmud oğlu Kazımovski (1928 – 2.3.1976) Bakıda doğulub. Çoxsaylı radio və televiziya tamaşalarına, bədii televiziya filmlərinə (“Poçt qutusu”) quruluş verib.

**31 dekabr 1928** – Tanınmış rəssam Rasim Həşim oğlu Xələfov (1928 – 23.4.2010) anadan olub. Dekorativ-tətbiqi və monumental işlərin, Bakı metrosunun “Gənclik”, “Qara Qarayev” stansiyalarının, Bakı Dövlət Sirkinin bədii tərtibatının müəllifidir.

**31 dekabr 1934** – Böyük yazıçı-dramaturq, şair, ssenarist, rejissor, Əməkdar incəsənət xadimi Cəfər Qafar oğlu Cabbarlı (20.3.1899 – 1934) vəfat edib. Milli dramaturgiyanın inkişafında yeni mərhələnin təməlini qoyub, milli kinoda ilk ssenarilərin (“Hacı Qara”, “Sevil”, “Almaz”) müəllifidir.

**1 yanvar 1909** – Səs operatoru, aktyor Ağahüseyn Əşrəf oğlu Kərimov (1909-1991) anadan olub. 1940-cı illərdən “Azərbaycanfilm”də çalışıb.

**1 yanvar 1930** – Yazıçı, Əməkdar mədəniyyət işçisi Tahir İsmayıl oğlu Hüseynov (1930-1993) Borçalı mahalının Qaçağan kəndində doğulub. Kitabları: “Gecikmiş heykəl”, “Yanıq Abdullanın yuxuları” və s.

**1 yanvar 1937** – Görkəmli aktyor, Xalq artisti Eldəniz Məmməd oğlu Zeynalov (1937 – 5.11.2001) anadan olub. “Əhməd haradadır?”, “Bir cənub şəhərində”, “Ömrün səhifələri”, “Yol əhvalatı” və s. filmlərdə, teatr və televiziya tamaşalarında yaddaqalan obrazlar yaradıb.

**1 yanvar 1947** – Xalq artisti Mikayıl Mirzə (Mikayıl Şahvələd oğlu Mirzəyev; 1947 – 3.6.2006) Ağsu rayonunda doğulub. Akademik Milli Dram Teatrında çalışıb, filmlərdə, televiziya tamaşalarında (“Günahsız Abdulla”, “Topal Teymur”) yaddaqalan obrazlar yaradıb. Milli Məclisin deputatı (2001-2005) olub.

**2 yanvar 1936** – Musiqişünas, Bakı Musiqi Akademiyasının professoru, Əməkdar müəllim Zərifə Musa qızı Bakıxanova (1936-2014) anadan olub.

**2 yanvar 1937** – Xalq rəssamı, heykəltəraş Arif Şamil oğlu Qazıyev (1937 – 3.9.2021) İrəvan şəhərində doğulub. Müxtəlif mövzularda əsərlər, görkəmli şəxsiyyətlərin heykəl və büstlərini (Hüseyn Cavidin büstü – şairin Naxçıvandakı ev-muzeyində) yaradıb. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru olub.

**2 yanvar 1944** – Əməkdar artist Qurban Məmiş oğlu Abbasov (1944-1998) anadan olub. Gəncə Dövlət Dram Teatrında çalışıb.

**2 yanvar 1945** – Görkəmli teatr və kino aktyoru, Əməkdar artist Səməndər Mənsim oğlu Rzayev (1945 – 27.3.1986) Ağsuda anadan olub. Milli Dram Teatrında çalışıb. “Nəsimi”, “Babək”, “Bağ mövsümü”, “Bəyin oğurlanması” və s. filmlərdə çəkilib, filmlərin dublyajında iştirak edib. “Bulaq” radio verilişinin aparıcısı olub.

### Dünya

**29 dekabr 1775** – İtalyan əsilli Rusiya memarı Karl Rossi (Carlo di Giovanni Rossi; 1775-1849) Neapolda anadan olub.

**30 dekabr 1865** – İngilis yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1907) laureatı Redyard Kiplinq (Joseph Rudyard Kipling; 1865-18.1.1936) anadan olub.

**31 dekabr 1869** – Fransız rəssamı və heykəltəraşı Anri Matiss (Henri Matisse; 1869-1954) anadan olub.

**1 yanvar 1854** – İngilis tarixçisi, kulturoloq, antropoloq, folklorşünas Ceyms Corc Freyzer (James George Frazer; 1854-1941) anadan olub.

**1 yanvar 1919** – Amerika yazıçısı Cerom Devid Selincer (Jerome David Salinger; 1919-2010) anadan olub.

**2 yanvar 1943** – Türk musiqiçisi, bəstəkar Barış Manço (1943 – 1.2.1999) anadan olub.

**2 yanvar 1912** – İtalyan rəssamı Renato Quttuzo (Renato Guttuso; 1912-1987) anadan olub. Əsərləri: “Çarmıx”, “Etnanın püskürməsi”, “Allah bizimlədir” və s.

**Hazırladı: Vüqar Orxan**

№96 (1873)
29 dekabr 2021
www.medeniyyet.az

# İstanbulda "Nizami ili"nin son tədbiri

"Nizami Gəncəvi İli" çərçivəsində ölkəmizin hüdudlarından kənarda silsilə layihələr keçirilib. Bu sıradan ilk böyük tədbir Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un dəstəyi ilə martın əvvəlində Ankarada gerçəkləşmişdi. "Nizami Gəncəvi İli"nə böyük diqqət ayıraraq sərgi, konsert və təqdimatlar keçirən TÜRKSOY İstanbulda Azərbaycanın dahi şair və mütəfəkkirinin şərəfinə düzənlənən ilin son tədbirində də fəal iştirak edib.

Dekabrın 24-də Azərbaycanın İstanbuldakı Baş konsulluğu, Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi, TÜRKSOY, İstanbulun Maltepe və Sarıyer bələdiyyələri və qardaş ölkədə fəaliyyət göstərən "Xarıbülbül" Vizyon Teatrı"nın birgə təşkilatçılığı ilə gerçəkləşən tədbir çərçivəsində Nizami Gəncəviyə həsr olunmuş rəsm sərgisi və "Sirlər xəzinəsi" poemasından "Kərpickəsən kişinin dastanı" hekayəsi əsasında hazırlanan tamaşa bağda nümayiş etdirilib.

Baş konsul Nərminə Mustafayeva, TÜRKSOY-un Baş katibinin müavini Bilal Çakıcı, Sarıyer Bələdiyyəsinin sədr müavini Hüseyn Coşqun, Azərbaycanın TÜRKSOY-dakı təmsilçisi Elçin Qafarlı və "Xarıbülbül" Vizyon Teatrı"nın rəhbəri Kamalə Cabbarova tədbirdə iştirak ediblər.



Açılış nitqi ilə çıxış edən Bilal Çakıcı deyib: "Türk dünyasının mədəniyyət xəzinəsinə misilsiz töhfələr vermiş möhtəşəm şəxsiyyətlərin gənc nəsillərə tanıdılması devizi ilə fəaliyyətini davam etdirən TÜRKSOY Azərbaycan Prezidenti İlham Əliyevin 2021-ci ili "Nizami Gəncəvinin anım ili" elan etməsindən sonra bu istiqamətdə bir sıra layihələr həyata keçirib. Nizaminin əsərlərindən ilhamlanaraq sənətsevərlərə təqdim olunan sərgidəki rəsm əsərlərinin əksəriyyəti bu günlərdə 100 illiyi tamam olan dünya şöhrətli Azərbaycan rəssamı Mikayıl Abdullayevin Nizami yaradıcılığına həsr olunmuş əsərlərindən ibarətdir".

Baş konsul Nərminə Mustafayeva Nizami Gəncəvinin əsrlər əvvəl qələmə aldığı və onu bütün dünyada şöhrətləndirən əsərlərin mövzu baxımından bu gün də aktual olduğunu və bəşəriyyətə mühüm mesajlar verdiyini vurğulayıb.

Hüseyn Coşqun Sarıyer Bələdiyyəsi olaraq Nizami Gəncəvi kimi dahi şairə həsr edilən, Azərbaycan və Türkiyənin mədəniyyətini bir araya gətirən tədbirə ev sahibliyi etməkdən məmnunluq duyduqlarını bildirib.

Mərasimdə "Xarıbülbül" Vizyon Teatrı"nın təqdimatında Nizaminin "Sirlər xəzinəsi" poemasından "Kərpickəsən kişinin dastanı" hekayəsi əsasında tamaşa nümayiş olunub. Layihənin baş koordinatoru Yunus Soyupek, bədii rəhbəri Kəmalə Cabbarova, tərcüməçi Yurtsevər Şən, ssenari müəllifi və rejissoru Adem Yaşar, musiqi və geyim tərtibatçısı Lətafət Rafiqqızı, bədii rəssam və dizayn ustası Tarıyel Əlizadədir.

**Mehparə Sultanova**
**Ankara**

# Yeni il gəlir...

## Paytaxtımız bayrama necə hazırlaşır?



2022-ci ilə sayılı günlər qalır. İki ildir bəşəriyyət koronavirus pandemiyasının əsarətindən qurtula bilmir. Bununla belə, pandemiya şərtləri daxilində insanlar Yeni ili yaddaqalan qeyd etməyə çalışırlar. Yeni il bayramının gəlişinə ən çox sevinənlər isə uşaqlardır...

Bəs Bakı Yeni ili necə qarşılayacaq? Paytaxtımızda bayram hazırlıqları ilə yerində tanış olmaq üçün fotoqrafımızla bir neçə məkana baş çəkdik.

İlk olaraq Sahil bağına üz tuturuq. Yeni ilin gəlişi ilə bağlı ənənəvi olaraq parkda böyük yolka qoyulub. Digər illərə nisbətən yolkanın həndəvərində əcnəbi turistlər az gözə dəyir. Paytaxt sakinləri havanın ötən günlərlə müqayisədə bir qədər sazaqlı olmasına baxmayaraq bağda istirahət edirlər.

Fəvvarələr meydanına doğru hərəkət edirik. Burada dekabrın 13-dən ənənəvi "Soyuq əllər, isti ürək" xeyriyyə yarmarkası keçirilir. Tədbir Nərgiz Fondunun təşəbbüsü ilə artıq səkkizinci dəfə təşkil olunur. Bu il meydanda 71 kiçik taxta köşk və 2 restoran qurašdırılıb. Yarmarkaya üz tutan qonaqlar həm tanınmış brendlərin, həm də həvəskarların Yeni il hədiyyələrini, suvenirlərini, əl işlərini və eksklüziv müəllif zinət əşyalarını ala bilərlər. Burada da istəyənlər üçün müxtəlif isti yemək və içkilər təklif edilir. Bundan başqa, Bakı sakinləri və qonaqlar Yeni il bayramı abhavasına qərq ola, rəngarəng işıqlarla bəzədilmiş meydanda pandemiya qaydalarına əməl etməklə Şaxta baba və Qar qızla şəkil çəkdirə bilərlər.

Bu il də yarmarkada toplanan bütün vəsait müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqların müalicə və əməliyyat xərclərinin qarşılanmasına sərf ediləcək.

Nərgiz Fondunun layihə direktoru Aydan Nəsibova qeyd edir ki, 2020-ci ildə həm bahar, həm qış xeyriyyə yarmarkalarının keçirilməsi xüsusi karantin rejimi səbəbilə təxirə salındı: "Bütün çətinliklərə və maneələrə baxmayaraq, fondumuz qeydiyyata aldığı ailələrə köməyini davam etdirdi. Bu müddət ərzində 50-dən çox uşaq xeyriyyəçilərin və şəxsən fond rəhbərliyinin maliyyə dəstəyi ilə müalicə və əməliyyata göndərildi".

Müsahibim söyləyir ki, xeyriyyə yarmarkasına şəhid övladları da diqqətdən kənarda qalmayıb. Təkcə ötən həftə ərzində 17 şəhid övladı yarmarkanın qonağı olub. Restoranların birində onlar üçün xüsusi proqram hazırlanıb, Yeni il hədiyyələri təqdim edilib. "Soyuq əllər, isti ürək" xeyriyyə yarmarkası 2022-ci il yanvarın 15-dək davam edəcək.

Daha sonra yolumuzu Bakının qədim məkanından – İçərişəhər ərazisindən salırıq. Burada da Yeni il ab-havası duyulur. Qız qalasının qarşısında yolka quraşdırılıb. Uşaqlar yolkanın ətrafında əylənir, şəkil çəkdirirlər.

Sonuncu üz tutduğumuz məkan isə həmişə Yeni ilin böyük coşqu ilə qeyd olunduğu Dənizkənarı bulvar ərazisi oldu. Yeni ilin gəlişi ilə bağlı bulvar boyunca müxtəlif rəngarəng kompozisiyalar quraşdırılıb.

Bu il 90 yaşını qeyd edən uşaqların sevimli məkanı Azərbaycan Dövlət Kukla Teatrının yanındakı yeraltı keçidin önündə, bulvar ərazisi istiqamətində işıqlarla bəzədilən maraqlı tunel quraşdırılıb. Bulvarın müxtəlif yerlərində də yolkalar qurulub.



Bayram günlərində bulvarda Yeni ilin bütün atributlarına rast gəlmək mümkün olacaq. Qonaqlar rəngarəng bəzədilmiş retro maşınlarla bulvarın müəyyən yerlərinə hərəkət edə biləcəklər.

Yanvarın 2-də bulvar ərazisində bayram konserti təşkil olunacaq. Ümumilikdə Bakı bulvarında Yeni il kompozisiyaları yanvarın 3-dək davam edəcək.

Onu da qeyd edək ki, Yeni ilin gəlişi ilə bağlı bəzi metro stansiyalarının çıxışlarında yarmarka çadırları qurulub. Dekabrın sonuna kimi fəaliyyət göstərəcək yarmarka çadırlarında müxtəlif növ bəzək əşyaları, oyuncaqlar və Yeni il atributlarını özündə əks etdirən suvenirlər satışa çıxarılıb.

Gəzdiyimiz məkanlarda insanların hər birinin, xüsusilə uşaqların üzündə sevinc, təbəssüm vardı. Valideynlər uşaqların Yeni ildə maraqla əylənmələri üçün yaradılan şəraitə görə minnətdarlıq edirdilər.

...Əvvəlki illərdə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramında xalq olaraq ən böyük arzumuz torpaqlarımızın işğaldan azad olunması, hər növbəti ildə yağı tapdağında olan yurd yerlərimizdə şənliklər keçirmək idi. Şükürlər olsun ki, bu diləyimiz də reallaşdı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Ordumuz torpaqlarımızı işğaldan azad edərək xalqımıza Qələbə sevinci bəxş elədi. Ona görə də hər bayramda, el şənliyində bizə şanlı Zəfər ərməğan edən şəhidlərimizin əziz xatirəsini unutmamalı, qazilərimizə minnətdar olmalıyıq. Yeni iliniz mübarək!

**Nurəddin Məmmədli**

# Pələng ili: böyük pişikdir deyib gözünüzü qırpmayın...

Belə deyirlər ki, günlərin bir günü pələnglə ev pişiyi rastlaşır. Havadan-sudan danışıb bir az dərdləşəndən sonra pələng pişikdən soruşur: "Hər necə olsa, qardaş sayılırıq. Ona görə də xətrinə dəyməsin, bir sual verəcəyəm: necə olur ki, mən – pələng bu boyda, bu hünərdə, bu cəsarətdə, amma sən, – mənim qardaşım – bu xırdalıqda, bu acizlikdə? Bildiyim qədər, son zamanlar ovçuluğu da tərgitmisən, qabağına nə qoyurlar, onu yeyirsən". Pişik bir sağa baxır, bir sola baxır, dərindən köks ötürüb cavab verir: "Qardaş, sən bu insanları yaxşı tanımırsan. Çox demirəm, elə mənim qədər onlarla yanaşı yaşa, görüm, sənin bu boy-buxunundan, çəkindənsanbalından nə qalır". Ta pişiyin bu cavabından sonra pələng nə dediyi barədə tarix susur.

Amma öz aramızdır, pişik də yaman diplomatik cavab verib: biz də, o zavallı pələng də nə bilək ki, pişik insanlar arasında yaşamağa işarə vuranda şəxsən özündən danışıb, yoxsa, ümumiyyətlə, insanın vəhşi pişiyi əhliləşdirmə tarixindən. Elm isə sübut edir ki, insan pişiyi on min illər öncə əhliləşdirib. Üstəlik, bu proses insana necə ağır başa gəlibsə, ta ondan sonra bəşər övladı heç bir heyvanı (!) kütləvi şəkildə ev təsərrüfatına daxil etməyib. Ev pişikləri barədə bu qədər, qalanını 2023-cü ilə qarşılayanda yazarıq.




İndisə belə deyirlər ki, qarşıdan gələn 2022-ci il Pələng ilidir. Əslində, astroloji təqvimə görə, Pələng ili öz vəzifə və öhdəliklərini ən tezi yanvarın sonundan (Çin təqviminə görə), ən geci martın 21-dən yerinə yetirməyə başlayacaq. İllərin heyvan üstdə təhvil olma ənənəsinin əməl etdiyimiz Yulian təqviminə heç bir aidiyyəti olmasa da, bunu təzə illə necə davranmağın baş məsəqi kimi də qəbul etmək olar.

Adətən, Pələng ili cəmiyyətlərin taleyində parlaq hadisələrlə və kəskin dönüşlərlə zəngin il olaraq yadda qalır. Hərçənd ilin üstündə təhvil olduğu heyvanın rənginin də bu məsələdə rolu az deyil. Astroloqlar deyirlər ki, Qırmızı At, hətta Qırmızı Siçan ili belə Ağ Əjdahadan daha qorxuludur. O ki qaldı 2022-ci ilin Pələnginin rənginə, təzə il Mavi Su Pələngi ili olacaq. O da var ki, suyun ən kortəbii ünsür və ən güclü təbii qüvvə, mavi rəngin isə ən qeyri-sabit rəng sayıldığı da gərək nəzərə alına. Bu üzdən də hər kəsin qəfil dəyişikliklərə hazır olması məsləhətdir. Pələng fərqli və şıltaq heyvandır, onunla ehtiyatlı olmaq lazımdır. Su ünsürü onun yırtıcıya xas cəhətlərini bir qədər yumşaldır, qəzəbini və qıcığını azaldır. Hərçənd təbiətdə su da ikili xarakterə malikdir: quraqlıq zamanı yağış kimi xilaskardır, sunami kimi gələndə fəlakət. Odur ki, Su Pələnginin xasiyyətinə uyğunlaşmaq gərəkdir.

Astroloqlar Mavi Su Pələngi ili barədə nə qədər qəribə, hədə dolu xəbərdarlıqlar etsələr də, təlaşlı proqnozlar versələr də, ürəyinizə salmayın. Əmin olun ki, qalib xalqı rəngindən asılı olmayaraq, nə Pələng ili, nə Əjdaha ili ilə bağlı ehtiyatlı olmaq ehtimalları qorxuda bilər. Əgər Siçan ilində bir olub dəmir yumruğumuzu bükub düşmənin başını əzdiksə, Öküz ilində heç bir təxribata uymadan Qələbəmizi möhkəmləndirdiksə, deməli, Pələng ilindən də bizə zaval gəlməz. Üstəlik, bilmirəm, fikir vermisiniz, ya yox, bizim insanlar kiminsə gücünü, qüvvətini, qorxmazlığını vəsf etmək üçün onu ya pələngə bənzədər, ya da şirə.

Bir də ki, əzizlərimiz, ilin hansı heyvan üstündə təhvil olması bəşər övladının həyatına rəng qatmaq üçün uydurulmuş yarıgerçək, yarıyalan nağıldır. Ömrümüzü nağıl kimi yaşamaq isə öz əlimizdədir. Yeri gəlmişkən, həyatda uğur qazanmağın ötrü səy göstərərkən heç yorulmayın, müvəqqəti maneələr qarşısında da kefinizi pozmayın: çünki... Çünki bütün nağıllar xoşbəxt sonluqla bitir.

Yeni iliniz mübarək!

Astroloji proqnozları ələyib oxucularımızı "Mədəniyyət"çilər adından təbrik etdi:

**Gülcahan Mirməmməd**

# Tokioda caz konsertində Azərbaycan mahnıları və rəqsləri

Yaponiya paytaxtının Qinza əyləncə mərkəzindəki "Swing Jaz Club"da təşkil olunan konsert zamanı müxtəlif xalqların caz musiqisi ilə yanaşı, Azərbaycan mahnı və rəqsləri də ifa edilib. Tanınmış caz ifaçısı, "Excellence Award" mükafatının qalibi xanım Kyoko Yamamotonun Azərbaycan dilində səsləndirdiyi "Sarı gəlin" və "Bana-bana gəl" mahnıları və soydaşımız Dilarə Qazıyeva-Sato tərəfindən nümayiş etdirilən milli rəqslərimiz sürəkli alqışlarla qarşılanıb.



Yapon tamaşaçılara Azərbaycan musiqisinin əsrarəngizliyi barədə məlumat verən K.Yamamota biznes əlaqələri qurmaq üçün ölkəmizə səfər edən zaman burada həm də çox zəngin musiqi ilə qarşılaşdığını bildirib. Qeyd edib ki, Azərbaycan musiqisi ritmlərin fərqliliyi, xüsusilə pop musiqisinin çox maraqlı olması ilə onun diqqətini cəlb edib. Qərara alıb ki, orijinallığı ilə seçilən Azərbaycan musiqi nümunələrini öz repertuarına daxil etsin. "Sarı gəlin" və "Bana-bana gəl" mahnılarının yapon tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılandığını vurğulayan K.Yamamota qeyd edib ki, bundan sonrakı fəaliyyətində də Azərbaycan musiqisi nümunələrinə geniş yer verəcək.

"Bu konsert Yaponiya Mədəniyyət Nazirliyinin "Gələcək üçün incəsənət" layihəsi çərçivəsində təşkil edilib və pandemiyaya baxmayaraq, maraqlı əyləncə üçün əlverişli fürsət idi. Repertuara Latın Amerikası və yapon mahnıları ilə yanaşı, Azərbaycan mahnıları da daxil edilməsi tamaşaçıların böyük marağına səbəb oldu. Çox sevinirəm ki, Yaponiya ilə Azərbaycan arasında uzun məsafənin olmasına baxmayaraq, sizin musiqiniz belə rəğbətlə qarşılanır. Yaxın gələcəkdə Azərbaycan musiqisinin yeni nümunələri üzərində işləməyi planlaşdırıram", – deyə K.Yamamota bildirib.

# Tacikistanda "Xosrov və Şirin" operasının təqdimatı olub

"Nizami Gəncəvi İli"nə töhfə olan daha bir təqdimat Tacikistanda keçirilib. Tacikistan Dövlət Akademik Opera və Balet Teatrında bəstəkar Əmirbəy Musonun "Xosrov və Şirin" operasının nümayişi olub.



Azərbaycanın Tacikistandakı Səfirliyinin təşəbbüsü ilə keçirilən tədbirdə ölkənin rəsmiləri, mədəniyyət xadimləri, ictimaiyyət təmsilçiləri, diplomatik korpusun nümayəndələri, eləcə də Tacikistanda yaşayan soydaşlarımız iştirak ediblər.

Azərbaycanın Tacikistandakı səfiri Əlimirzamin Əskərov Nizami Gəncəvinin yaradıcılığından, onun dünya və Şərq ədəbiyyatında yeri və rolundan söz açıb, əsərlərin hər zaman dünya şərqşünaslıq elminin diqqət mərkəzində olduğunu qeyd edib.

Rəsmi hissədən sonra "Xosrov və Şirin" operası göstərilib və tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Qeyd edək ki, Tacikistan Bəstəkarlar İttifaqının sədri Əmirbəy Musonun 2019-cu ildə Nizami Gəncəvinin eyniadlı poeması əsasında yazdığı opera ilk dəfə tamaşaya qoyulub.

# Dünya İqtisadi Forumunun vaxtı yay mövsümünə keçirilib

İsveçrənin Davos şəhərində ənənəvi olaraq qışda keçirilən Dünya İqtisadi Forumu koronavirus pandemiyası səbəbilə bu il də yay mövsümünə ertələnib. Forumun 2022-ci il yanvarın 17-21-də keçirilməsi nəzərdə tutulurdu.

Təşkilatçılar hazırda virusa yoluxmaların artması fonunda insanların çoxsaylı bir araya gəldiyi beynəlxalq tədbirin keçirilməsinin olduqca çətinləşdiyini bəyan ediblər. Verilən məlumata görə, tədbir gələn il yay mövsümünün əvvəlində keçiriləcək.

Davos Forumu yüksək ranqlı siyasət, elm, iqtisadiyyat və media dairələri nümayəndələrinin bir araya gəldiyi, cəmiyyət və iqtisadi dairələri maraqlandıran qlobal mövzularda müzakirələrin aparıldığı beynəlxalq tədbir kimi böyük nüfuza malikdir.

2021-ci ildə də Dünya İqtisadi Forumunun vaxtı dəyişdirilmiş, əvvəlcə mayda, daha sonra isə avqust ayında Sinqapurda keçiriləcəyi elan edilmişdi. Nəhayət, yoluxmaların artımı nəzərə alaraq birbaşa iştirak əsasında forumun keçirilməsindən imtina edilmişdi.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır
**Baş redaktor:** Vüqar Əliyev
**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D Dövlət Film Fondu, 5-ci mərtəbə
**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik
"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5146
**Sifariş:** 2841
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.